

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondunun milli sərvətlərimizə töhfəsi



3

SƏS
№ 030 (6955)
16 fevral 2024-cü il.
Qiyməti 60 qəpik

# YENİ DÖVRƏ başladıq!



2

## YAP Mərkəzi Aparatında partiyanın Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev ilə görüş keçirilib



5

# Erməni vəkili Borrelldən NÖVBƏTİ HƏYASIZLIQ



6

## QİSAS əməliyyatı: bir addıma bir addım



7

## Ünvanlı dövlət sosial yardım necə tətbiq olunur?



12

## Xankəndidə Qarabağ Universiteti




13

## Azərbaycanda "Lada" avtomobilləri yığılacaq




16

TƏHLİL

# YENİ DÖVRƏ başladıq!



***2003-2023-cü illər Azərbaycan tarixinə xüsusi dəst-xəttlə yazılmış illər olaraq artıq geridə qaldı. 2003-cü ildə cənab İlham Əliyev ölkə Prezidenti seçilərək Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməsi ilə Ümummilli Liderimizin ölkəyə ikinci dəfə rəhbərliyi dövründə Azərbaycanda yaratdığı və inkişafına, müstəqilliyinin əbədiliyinə nail olduğu yeni Azərbaycanın daha böyük tərəqqisinə nail oldu. Ötən 20 ilin əvvəli ilə sonunu bir-birindən çox fərqli mənzərələr birləşdirir. Həm ictimai-siyasi, həm sosial-iqtisadi, xüsusilə də Qarabağ və Şərqi Zəngəzurla bağlı mənzərələrin hər birində əldə olunan yenilik, tərəqqi qürur hissi doğurur.***

Ölkəmizdə ötən 20 il ərzində hərtərəfli inkişafa nail olunduğu, xüsusilə də dövlət başçısının "Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik" dəyərli fikirlərində də bildirdiyi kimi, torpaqlarımızın da işğaldan azad olunmasından sonra, bəli, qarşıda Azərbaycanı yeni bir dövr gözləyir. Yeni dövr isə qarşımıza yeni vəzifələr qoyur. Buna görə də hər birimiz öz sahəmizdə yeni dövrün tələblərinə cavab verəcək dərəcədə çalışmalı, dövlət başçısı ətrafında daha sıx birləşməklə, Azərbaycanın gələcəyini hər zaman xalqının və millətinin mənafeyini düşünən Prezidentimizin görmək istədiyi səviyyəyə çatdırmalıyıq.

## Güclü iqtisadiyyat ən önəmli şərtdir

Güclü iqtisadiyyat olmadan heç bir inkişafdan söhbət gedə bilməz. 90-cı illərdə torpaqlarımızın işğalı ölkəmizin böhran vəziyyətinə düşmüş iqtisadiyyatı səbəbindən reallaşa bildi. Çünki ordu infrastrukturunun yox dərəcədə olması işğalın əsasını təşkil edirdi. Ölkə vətəndaşlarının həmin illərdə yaşayış səviyyəsinin aşağı olması səhiyyə, təhsil və digər sahələrdə bir çox problemlərlə üzləşməsi ilə nəticələnirdi.

Ötən 20 ili müstəqillik illərinin qızıl dövrü hesab etmək olar. "Güclü iqtisadiyyat ən önəmli şərtdir",–deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində keçirilmiş tədbirlər nəticəsində Azərbaycan iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olub.

Azərbayca¬nın ümumi daxili məhsulu (ÜDM) real ifadədə 3,6 dəfə artıb. 2003–2022-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 7,3 milyard dol¬lardan 78,7 milyard dollara yüksəlib. 2003–2023-cü illərdə dövlət büdcəsi¬nin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb. Strateji valyu¬ta ehtiyatları 2003-cü ildə 1,4 milyard dollardan 2023-cü il oktyabrın 1-nə 66,1 milyard dollara qədər artıb. 2003–2022-ci illərdə ölkə iqtisadiyyatına ya¬tırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq sə¬viyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77,4 manatdan 839,4 manata yüksəlib.

Dövlət başçısı iqtisadiyyatın şaxələndirilməsini milli iqtisa¬diyyat qarşısında əsas çağırış olaraq qoyub və bu istiqamətdə görülən işlər nəticəsində ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büd¬cəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3 min 500 ma¬natdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən, ixrac 16,1 dəfə artıb. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 min 256 manat təşkil edib.

Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı inkişaf təmin olu¬nub. Birbaşa xarici borcun həcmi aza¬laraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçib və bu, hazırda birbaşa xarici borcumuzu 10 dəfə üstələyir. Bu dövr ərzində sərmayələrin ümu¬mi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onun 190 milyard dolları qeyri-enerji sektoruna yatırılıb. Görül¬müş məqsədyönlü tədbirlər nəticəsin¬də son 20 ildə qeyri-neft ixracı 8 dəfə¬dən çox artıb.

Ötən 20 ildə Azərbaycanda qey¬ri-neft sektorunun davamlı inkişafını reallaşdırmaq, innovativ və yüksək tex¬nologiyalara əsaslanan sənaye müəs¬sisələrini qurmaq, bu sahədə sahibkar¬lığı dəstəkləmək və istehsal sahəsində məşğulluğu artırmaq məqsədilə yüz¬lərlə istehsal və emal müəssisələri, iri sənaye mərkəzləri, parkları və məhəl¬lələri yaradılıb. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində son 20 ildə qeyri-neft ixracı 8 dəfədən çox artıb. Bu dövr ərzində respublika üzrə 51 aqropark yaradılıb.

"Əsrin müqaviləsi" ilə Xəzər hövzəsini xarici investorlar üçün açan, Xəzərlə Qara dəniz və Aralıq dənizini birləşdirəcək enerji infrastrukturunun əsasını qoyan Ulu öndər Heydər Əliye¬vin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində yaranan imkan¬lar qarşıya qoyulan genişmiqyaslı və¬zifələrin tam həcmdə yerinə yetirilməsi üçün mühüm zəmin yaratdı. 2006-cı il iyulun 13-də Heydər Əliyevin adını daşıyan nəhə¬ng Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin açılışı oldu və həmin ilin dekabrın 15-də "Şahdə¬niz" yatağında ilk quyu istismara veril¬di. Sonrakı illərdə "Ümid", "Babək" və "Abşeron" yataqlarının kəşfi Azərbay¬canın böyük qaz ehtiyatlarına sahib ol¬duğunu təsdiq etdi. Bununla da, Azər¬baycanın təbii resurslar tarixində yeni bir səhifə açıl¬dı. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci il¬dönümündə Səngəçalda Cənub Qaz Dəhlizi layihəsinin təməli qoyuldu.

Bakı–Tbilisi–Ceyhan neft kəmərindən sonra, Bakı–Tbilisi–Ərzu¬rum, TANAP, TAP kimi transmilli qaz arteriyaları reallaşdırıldı. Bütün bunlar isə dünyanın enerji xəritəsində yeni mən¬zərə formalaşdırdı.

Beləliklə, iqtisadiyyatımız inkişaf etdikcə, bu, öz təsirini bütün sahələrdə göstərməyə başladı. Əsasən də ordu quruculuğu sahəsində. Çünki torpaqlarımız işğal altında idi və onların xilası üçün iki yol var idi. Ya torpaqlarımız sülh yolu ilə geri qaytarılmalı, ya da hərbi yolla. Danışıqlar vasitəsilə torpaqlarımızın sülh şəraitində xilası üçün illərlə dünya miqyasında işlər aparsa da, lakin beynəlxalq aləm susdu. Həm də illərlə susdu. Belə olan halda isə dövlətimizin başçısı ikinci yolu-hərb yolunu seçməli oldu. Deməli, biz ikinci yola hazır idik.

## Biz elə Ordu yaratmışıq ki...

Ölkə rəhbəri ötən 20 il ərzində Azərbaycanın müda¬fiəsini gücləndirməyi də diqqət mərkə¬zində saxlayıb. Dövlət büdcəsində müdafiə xərclərinin əhəmiyyətli çəki¬sinə xüsusi önəm verib. Bu, ölkəmizin müharibə şəraitində yaşaması, ərazi¬mizin 20 faizdən çox hissəsinin işğal altında olması ilə bağlı olub. Bütün bu qayğı və diqqət nəticəsində müstəqil Azərbaycanın NATO standartlarına cavab verən, şəxsi heyətinin döyüş ha¬zırlığı yüksək olan peşəkar və modern ordusu yaradılıb. Bu ordunun dinamik inkişaf meyillərini isə məhz ölkənin uğurlu daxili və xarici siyasəti, eyni zamanda, dünyada artan nüfuzu şərtlən¬dirib.

Məhz 44 günlük Vətən mühari¬bəsində qazanılan tarixi Zəfər Azər¬baycan Prezidenti İlham Əliyevin rəh¬bərliyi, düşünülmüş siyasəti, qətiyyəti və prinsipiallığı nəticəsində bütün is-tiqamətlərdə əldə olunan böyük uğur¬ların və qüdrətli silahlı qüvvələrin forma¬laşmasının məntiqi nəticəsi idi.

2023-cü il sentyabrın 20-də 24 saatdan az vaxt çəkən lokal antiterror tədbirləri nəticə¬sində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisindəki bütün tör–töküntülərini, hərbi infrastrukturunu sıradan çıxar¬dı, hərbi xuntanı ağ bayraq qal¬dırmağa məcbur etdi.

Prezident, müzəffər Ali Baş Koman¬dan İlham Əliyevin rəhbərliyi ilə Azər¬baycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qar-şısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi.

Dövlətimizin başçısı milli ordumuzun bundan sonra da güclənməsini, daha da müasirləşməsini arzulayır. Ötən gün andiçmə mərasimindəki çıxışında ordu məsələsinə nəzər salan Prezident İlham Əliyev deyirdi: Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir.

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

## Yeni dövr- yeni çağırışlar

Beləliklə, ötən 20 il yüksək göstəricilərlə başa çatdı. Ən əsası isə Qarabağın və Şərqi Zəngəzurun ərazilərinin düşməndən azad olunması 20 ilin nəticəsi oldu. Xalq 20 illik mübarizənin sonunda öz tarixi torpaqlarını yenidən qazandı. Soydaşlarımız 30 illik ayrılıqdan sonra doğma yurd-yuvasına qovuşa bildi.

Ölkə iqtisadi cəhətdən yüksəldi, bunun nəticəsində milli ordu təkmilləşdirildi, ölkədə vətəndaşa verilən dəyər amilindən bəhrələnərək əsl vətəndaş cəmiyyəti formalaşdı. Bu cəmiyyət isə vətənpərvər gənclərin formalaşmasına səbəb oldu. Dövlət-xalq birliyi yarandı və bu birlik torpaqlarımızın azad olunması, düşmənin birdəfəlik qovulması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi.

Fevralın 7-də Azərbaycan xalqı öz Prezidentini seçdi. Həm də bütöv Azərbaycanda ilk dəfə olaraq seçki keçirildi. Ölkənin inkişafı ilə yanaşı, həm də xalqımızın şərəf və namus məsələsini həll edən cənab İlham Əliyev çoxsaylı seçici rəyi ilə yenidən ölkə rəhbəri seçildi.

Beləliklə də yeni bir dövrün başlanğıcı qoyuldu. İnkişaf etmiş, torpaqları azad olunmuş ölkə qarşısında yeni bir dövr. Bu dövr dövlət başçısının andiçmə mərasimində də dediyi kimi başqa bir dövrdür: Bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir... Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır.

***Mətanət Məmmədova***

# Heydər Əliyev Fondunun milli sərvətlərimizə töhfəsi

***İctimai-siyasi, mədəni həyatda aparıcı qüvvəyə çevrilmək, əməli fəaliyyətilə böyük nüfuza sahib olmaq, örnəyə çevrilmək böyük məsuliyyət və zəhmətin bəhrəsidir. Əlbəttə ki, vətənpərvərlik, vətənə bağlılıq insanı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması onun vətənə bağlılığından irəli gəlir. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurub.***



## *Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva hər zaman xalqın yanındadır, insanların ümid, pənah yeridir*

Heydər Əliyev ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva hər zaman xalqın yanında olan onun problem və qayğıları ilə maraqlanan və onların çözülməsinə çalışaraq həqiqətən də insanların ümid, pənah yeridir. Xeyirxahlıq, haqq-ədalət ünvanıdır. Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirən Fondun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında əks-səda doğuraraq, birmənalı qəbul edilir. Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev haqqında belə deyir: "O, Vətəninə, müstəqil, çiçəklənən, qüdrətli Azərbaycanda xoşbəxt görmək istədiyi xalqına olan sonsuz sevgisini hər şeydən üstün tuturdu. Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası onun müqəddəs arzusu reallaşıb".

Heydər Əliyev Fondu Ulu Öndər Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, Azərbaycan xalqının maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək və s məqsədi ilə böyük layihələri reallaşdırır. Azərbaycanın tərəqqisi və xalqın rifahının yaxşılaşmasına xidmət edən genişmiqyaslı proqram və layihələr böyük rəğbətlə qarşılanır. Fondun humanitar missiyada fəaliyyət proqramlarının həyata keçirilməsi vətəndaşların qayğı və problemlərinin həllində müstəsnadır. Həyata keçirilən bütün layihələr vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi, sosial rifahının yüksəldilməsi məqsədini daşıyır. Uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun qısa bir zaman məsafəsində gördüyü işlərin uğuru olaraq qəbul edilir.

### "TOLERANTLIĞIN ÜNVANI – AZƏRBAYCAN"

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

### DİN-TARİXİ ABİDƏLƏRİMİZƏ YENİ HƏYAT VERİLİR

Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımıza məxsus dini-mədəniyyət abidələrini dağıtmış olsalar da, bu abidələr, xarabazarlığa çevrilmiş yerlər yenidən bərpa olunur, onlara yeni həyat bəxş edilir. Görülən işlər hazırlanmış layihələr, şəhərlərin baş planı əasında sistemli olaraq reallaşır. Hər qarışında tariximizin izi olan bu ərazilərdə böyük bir xalqın izi, imzası vardır. 30 ilə yaxın işğal altında olan ərazilərimizdə sürətlə aparılan abadlıq və quruculuq işləri burada yeni müasir məkanlarımız olacağından xəbər verir. Əlbəttə ki, bu ərazilərdən erməni vandallarının izlərin silib atsaq da tariximizə, yaddaşımızda onların törətdikləri çirkin əməlləri silinməyəcək. İşğaldan azad olunan ərazilərimizdə yeni yolların çəkilməsi, yaşayış evlərin tikintisi və s. ilə yanaşı, din-tarixi abidələrimizə də yeni həyat verilir. Bildiyimiz kimi, işğaldan azad olunan ərazilərimizdə məscidlərdə təmir-bərpa işləri aparılır. Bu məscidlərin təmiri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Şuşada olan 17 bulağın 17-si də qurudulmuşdur və artıq Natəvan bulağı bərpa edilib. Ermənilər tərəfindən güllləbaran edilmiş Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri artıq öz isti nəfəsli torpağındadır. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu. Bülbülün evinin açılışı oldu. Azad edilmiş ərazilərdə ümumilikdə 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi nəzərdə tutulub. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi prosesi davam edir. Hazırda Zəngilanda məscidin daxili interyerində işlər davam etdirilir, o cümlədən ərazidə abadlaşdırma işləri aparılır. Layihənin 2024-cü ilin aprelində başa çatdırılması nəzərdə tutulur. Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidi istifadəyə verilib.

### "BİZ DAĞIDILMIŞ ŞƏHƏRLƏRİ VƏ KƏNDLƏRİ BƏRPA EDƏCƏYİK"

Şuşa şəhərində yerləşən Yuxarı Gövhər Ağa məscidi Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. Məscidin müəllifi məşhur memar Kərbəlayi Səfixan Qarabağidir. Minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib. Burada bərpa işlərinə 2021-ci ilin sonlarından başlanılmışdı. Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər Ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə başlanılan konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib.Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri aparılıb. Minarələrin boya işləri və qoruyucu qatın tətbiqi yekunlaşıb, məscidin dam örtüyünün qurulması həyata keçirilib.Bərpa işləri mədrəsə binasını da əhatə edib. Məscidin mədrəsə hissəsində taxta dam konstruksiyanın qurulması işləri tamamlanıb. Mövcud döşəmə örtüyünün sökülməsi və qalıqların təmizlənməsi işləri başa çatdırılıb. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir.Mehriban xanım Əliyeva hazırda dövlət qarşısında azad olunmuş ərazilərin canlandırılması və azərbaycanlı keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının təmin edilməsi kimi nəhəng vəzifənin dayandığını bildirib: "Biz bunun öhdəsindən gələcəyik. Biz dağıdılmış şəhərləri və kəndləri bərpa edəcəyik. Biz orada məktəblər tikəcəyik. Biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Heydər Əliyev Mərkəzində rəssam Kojo Marfonun sərgisinin açılışı olub



*Sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər*





***Heydər Əliyev Mərkəzində qanalı rəssam Kojo Marfonun "Ümid sınağı" ("Crucible of hope") adlı fərdi sərgisi açılıb. Sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.***

Açılış mərasimdən əvvəl rəssam Kojo Marfo jurnalistlərə açıqlamasında sərginin möhtəşəm təşkil edildiyini deyib: "Buraya gəlməzdən əvvəl Azərbaycanla bağlı ünvanladığım suallarımda ancaq xoş sözlər eşitdim. Bakıya ilk gəlişimdir. Burada olmaqdan və sərgimi keçirməkdən çox məmnunam. İnsanları mədəniyyət yaxınlaşdırır. Mədəniyyət sahəsində bizləri birləşdirən bir çox xüsusiyyətlər var. İlk sərgimi keçirməzdən əvvəl kifayət qədər həyatımı düşündüm. Həyatıma bir çox simalar daxil oldu, məhz onlar mənim əsərlərimin özünü təşkil edirlər və onlar məni sərgi keçirməyə həvəsləndirdilər. Bu isə insana hər zaman ümid verir".

Açılış mərasimində çıxış edən sərginin kuratoru Jan-Davit Malat (Jean-David Malat) Bakıya səfərinin bu əsərləri digər insanlara sərgiləməklə yanaşı, həmçinin gözəl şəhərdən həzz almaq imkanı yaratdığını qeyd edib. O, Kojo Marfonun solo sərgisinin təşkil edilməsinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərova öz minnətdarlığını bildirib, bundan sonra da bu cür sərgilərin keçiriləcəyinə ümidvar olduğunu söyləyib.

Rəssam Kojo Marfo çıxışı zamanı bildirib ki, sərgi onun uşaqlıq illərində gördüklərinə ithaf olunub, hər bir əsərin ardında bir mesaj dayanıb və bu mesajlar əsərlərlə insanlar arasında olan bağlantını əks etdirir. K.Marfo qeyd edib ki, əsərlərin mövzusu insanlara xas olan, onların vacib bildiyi amallarla bağlıdır.

"Mənim üçün böyük şərəfdir ki, yaratdığım əsərləri belə gözəl, möhtəşəm binada sərgiləmək imkanı qazandım. Bunun üçün Heydər Əliyev Fonduna minnətdarlığımı bildirirəm", - deyə rəssam əlavə edib. Sonra sərgiyə baxış olub.

Sərgidə rəssam Kojo Marfonun əlvan rəngləri ilə nəzərləri özünə cəlb edən, izləyicilərinə xoş, hətta bəzən bayram əhvali-ruhiyyəsi bəxş edən 20-dən çox əsəri nümayiş olunub.

Sərgilənən əsərlər qanalı rəssamın uşaqlıq xəyallarını müasir dünyanın reallığı ilə bir-birinə qarışdırır. Hər bir əsərində isə bir-birinə məharətlə bağlanan məna və emosiya qatları ziyarətçilərə Kojo Marfonu daha dərindən kəşf etmək imkanı qazandırır. Marfonun əsərləri cəmiyyət üçün güzgü funksiyasını daşıyır, dərin düşüncələrin yaranmasına ilham verir. Rəssamın fərqli zəkasını, yumor hissini və dərin müşahidə bacarığını nümayiş etdirən bu sərgi ziyarətçilərə Marfonun özünün hansı düşüncələrə malik olduğunu anlamağa fürsət yaradır.

Qeyd edək ki, Kojo Marfo Londonda yaşayan qanalı rəssamdır. O, uşaqlıqdan tanış olduğu Afrikanın ənənəvi Akan artefaktlarının, heykəllərinin təsiri altında rəssam kimi inkişaf edib. Çoxsaylı səyahətlər də Marfonun müxtəlif mədəniyyətlərlə tanışlığına və həmin mədəniyyətlərin yaradıcılığında əks edilməsinə səbəb olub. Marfonun yaradıcılığı ilə tanışlıq mədəniyyət dəhlizləri ilə səyahət etməyə bənzəyir. Kojo Marfonun sənət əsərləri bundan əvvəl Amsterdam, Barselona, London, Nyu-York, Paris, Tokio və digər şəhərlərdə nümayiş etdirilib.





# XİN: "Paşinyanın səsləndirdiyi əsassız iddialar bölgədə qəsdən gərginlik yaratmaq məqsədi daşıyır"



***"Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin fevralın 15-də keçirilən iclasında növbəti dəfə səsləndirdiyi əsassız iddialar bölgədə qəsdən gərginlik yaratmaq məqsədi daşıyır." Bu barədə Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.***

Bəyanatda, həmçinin vurğulanıb: "İlk növbədə, qeyd edək ki, hərbi qulluqçumuzun yaralanmasına cavab olaraq ölkəmizin həyata keçirdiyi tədbirlərin təcavüz kimi qiymətləndirilməsi faktların saxtalaşdırılmasıdır. 12 fevral tarixində Ermənistan tərəfinin təxribatlarının 5 aya yaxın müddətdə hökm sürən sabitliyi pozduğu və bunun məsuliyyətinin Ermənistan tərəfində olduğu hər kəsə yaxşı məlumdur. Eyni zamanda, Ermənistan Müdafiə Nazirliyinin Azərbaycan hərbçisinin yaralanması faktı ilə bağlı araşdırma aparılacağı barədə vədlərinə indiyə qədər nəyə görə əməl olunmadığına izahat verilməsi, habelə Ermənistanın sərhəd postlarında müxtəlif hərbi qruplaşmalara məxsus muzdluların Müdafiə Nazirliyinə hansı əsasda tabe olması məsələsinə aydınlıq gətirilməsi faydalı olardı.

Azərbaycanın anklav və eksklav kəndləri məsələsinə istinad edən Ermənistan baş naziri növbəti dəfə guya Azərbaycanın 31 kəndin ərazilərini işğal altında saxladığını iddia etməsi siyasi manipulyasiyanın tərkib hissəsidir. Əvvəlki bəyanatlarında belə kəndlərin 32 olduğunu bildirən baş nazirə xatırlatmaq istərdik ki, Azərbaycanın səkkiz kəndinin geri qaytarılmasına dair Ermənistanın öhdəlikləri mövcuddur.

Həmçinin, 1991-ci ilin sərhədləri və Alma-Ata bəyannaməsi əsasında ərazi bütövlüyünə və delimitasiyanın həyata keçirilməsinə istinad edən Ermənistan tərəfinin son 35 ilə yaxın müddətdə nəyə görə bu xəritələrə və razılıqlara əməl etmədiyinə, Sovet xəritələrində əksini tapmış sərhədləri qəbul etməkdən imtina etdiyinə, Azərbaycan ərazilərini işğal etdiyinə izahat verməsi yaxşı olardı.

Ermənistanın bütün qonşularının ərazi bütövlüyünü dəstəklədiyini iddia edən baş nazirə Ermənistan Konstitusiyasında, qüvvədə olan qanunvericilik aktlarında, rəsmi məktublarında, rəsmi bəyanatlarında, beynəlxalq təşkilatlar və məhkəmələrdə yaydığı sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən iddialarını xatırlatmaq istərdik.

Ermənistan tərəfi həqiqətən də sülh prosesində maraqlıdırsa, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialarından əl çəkməlidir".

***Fevralın 15-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyevin anadan olmasının 65-ci ildönümü münasibətilə görüş keçirilib. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Muxtar Nağıyevi doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı və ictimai-siyasi fəaliyyətində uğurlar arzulayıb.***



# YAP Mərkəzi Aparatında partiyanın Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev ilə görüş keçirilib

Tahir Budaqov bildirib ki, partiya həyatında uzun illər səmərəli fəaliyyət göstərən Muxtar Nağıyev hər zaman fəal mövqeyi ilə seçilib. O diqqətə çatdırıb ki, Muxtar Nağıyev Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü və sədr müavini kimi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib. Hazırda isə YAP Səbail rayon təşkilatının sədri kimi fəaliyyətini müvəffəqiyyətlə davam etdirir: “Sizin fəaliyyətiniz hər zaman yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 noyabr tarixli Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilməyiniz əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir”.




Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Muxtar Nağıyev Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının sıralarında təmsil olunmaqdan qürur duyduğunu bildirib. O, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin liderliyi ilə ölkəmizin, o cümlədən YAP-ın böyük nailiyyətlərə imza atdığını vurğulayaraq “Şübhə yoxdur ki, cənab İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan məqsədyönlü siyasəti Zəfər seçkisindən sonra - yeni dövrdə də həm ölkəmizə, həm də partiyamıza böyük uğurlar qazandıracaq”,- deyə vurğulayıb. M.Nağıyev bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səy və bacarığını əsirgəməyəcəyini diqqətə çatdırıb.

# MONEYVAL-ın hesabatı Azərbaycanın müvafiq sahədə gördüyü işlərə beynəlxalq səviyyədə verilən yüksək qiymətdir

***Bir neçə gün əvvəl Avropa Şurasının “Çirkli Pulların Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi”nin (MONEYVAL) Azərbaycan üzrə qiymətləndirmə nəticələrinə görə hesabatı açıqlandı. MONEYVAL-ın Maliyyə Tədbirləri üzrə İşçi Qrupu (FATF) tərəfindən müəyyən edilmiş standartalara əsasən hazırlanan Azərbaycan üzrə 5-ci raund qiymətləndirmə hesabatında ölkəmiz bir sıra nailiyyətlərə imza atıb ki, bu da dövlətimizin müvafiq sahədə həyata keçirdiyi işlərin beynəlxalq səviyyədə də təqdir olunduğunu göstərir.***

Belə ki, MONEYVAL Azərbaycan üzrə 2014-cü ildə keçirilmiş 4-cü raund qiymətləndirmə prosesindən sonra ölkəmizin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə üçün hüquqi və institusional bazanı gücləndirmək məqsədilə bir sıra tədbirlər həyata keçirdiyini və effektiv mübarizə sistemi tətbiq etdiyini vurğulayıb. Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycanın terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyəti effektiv qiymətləndirilib və ölkəmizin dövlət qurumları terrorçuluğun maliyyələşdirilməsi cinayətlərini uğurla araşdırıb. İstinad dövründə yeddi nəfər məhkum edilib.

Diqqətə çatdırılıb ki, ölkəmiz beynəlxalq əməkdaşlıqda əhəmiyyətli dərəcədə effektivliyə nail olub. Həmçinin digər ölkələrin maliyyə monitorinqi orqanlarına effektiv yardım və operativ məlumat mübadiləsi üçün dövlət orqanlarının imkanları yüksək qiymətləndirilib.

Hesabatda Azərbaycanda hüquq-mühafizə orqanlarının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə istifadə edilən maliyyə kəşfiyyatı məlumatlarına çıxışının olması da müsbət qiymət alıb. Habelə qeyd edilib ki, ölkəmizdə terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi üçün hədəfli maliyyə sanksiyalarının təxirə salınmadan həyata keçirilməsi üçün sağlam hüquqi baza mövcuddur.

Qeyri-kommersiya təşkilatlarının terrorçuluğun maliyyələşdirilməsi riskləri üzrə qiymətləndirilməsinin aparılması MONEYVAL tərəfindən müsbət dəyərləndirilib. Hesabatda vurğulanır ki, Azərbaycan cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərini düzgün anlayır. Maliyyə institutlarının qərar qəbuletmə prosesinə təsir edə biləcək şəxslər üzərində qanuni nəzarət tədbirləri mövcuddur.

Beşinci raund qarşılıqlı qiymətləndirmə hesabatına Azərbaycanla bağlı bir sıra tövsiyələr də əksini tapıb. Bunlar hüquq-mühafizə və sanksiya səlahiyyətlərinin, qurumlararası əməkdaşlığın, maliyyə araşdırmalarının, risklərin azaldılması istiqamətində qabaqlayıcı tədbirlərin gücləndirilməsi kimi məsələləri əhatə edib. Bu qiymətləndirmənin sonrakı prosedurlarına uyğun olaraq, Azərbaycan Respublikası görülmüş işlər barədə MONEYVAL-a hesabat verəcək.

Eyni zamanda, Azərbaycan cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə mübarizə sahəsində düzgün əlaqələndirmə və aparılan islahatlar nəticəsində bu prosesdən uğurla keçərək beynəlxalq tələblərə əhəmiyyətli dərəcədə cavab verən ölkələr sırasında yer alıb.

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən əlaqələndirilmiş və təşkil edilmiş bu qiymətləndirmə prosesində 10 dövlət qurumunun, eləcə də özəl sektorun bu sahədə 2015-2023-cü illəri əhatə edən fəaliyyəti nəzərdən keçirilib.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycan dünyada işğaldan, terrorizmdən ən çox əziyyət çəkən ölkələrdən biridir. Torpaqlarımızın Ermənistan tərəfindən 30 il davam edən işğalı nəticəsində Qarabağ və Şərqi Zəngəzurda çox sayda mina basdırılıb. Eyni zamanda, həmin ərazi nəzarətsiz qalan terror yuvasına çevrilmişdi. 2020-ci il Vətən müharibəsindən və 2023-cü ildə həyata keçirilmiş antiterror tədbirlərindən sonra həmin ərazilərdə terrorçuluğun kökü kəsilib, “boz zona” aradan qaldırılıb. Həmçinin separatçıların vaxtilə nəzarət etdikləri ərazilərdə xarici ölkə vətəndaşları tərəfindən terrorçuluğun maliyyələşdirilməsi üçün qeyri-leqal vəsaitlərin göndərilməsinin, təbii sərvətlərin qeyri-qanuni istismarının qarşısını alıb. Buna baxmayaraq, Ermənistanın mina terroru hələ də can almaqda davam edir. Mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüququn normalarının ciddi şəkildə pozulması ilə yanaşı, həm də insanlıq əleyhinə cinayətdir.

Uzun illər bu cür cinayətlərlə, mina terroru ilə üzləşmiş Azərbaycanın terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə yüksək effektivliyə nail olması təqdirəlayiq hal olmaqla yanaşı, həm də dövlətimiz tərəfindən bu istiqamətdə aparılan fəaliyyətə verilən qiymətdir.

Ölkələr üçün yüksək məsuliyyətli proses olan MONEYVAL 5-ci raund qiymətləndirilməsi çərçivəsində 2023-cü ildə bir sıra ölkələr beynəlxalq tələblərə əhəmiyyətli dərəcədə cavab vermədiyi üçün FATF-ın xüsusi monitorinqi rejiminə cəlb edilib və bir il ərzində nöqsanları qaldıra bilmədikləri üçün problemli ölkələrin “boz siyahı”sına daxil edilib.



# Ermənistana silah qadağası

Vəli VƏLİYEV

***İkinci dünya müharibəsinin sonu Yaponiya üçün də dəhşətli ssenari ilə bitdi. Sakit okean cəbhəsində hadisələr və antihitler koalisiyasının Yaponiyaya qarşı döyüşləri bu ölkəyə bəlalar gətirdi. Havay adalarına imperator hava donanmasının hücumundan sonra ABŞ təyyarələrinin Xirosima və Naqasaki şəhərlərinə nüvə bombası atması, Mancuriyanın Sovet ordusu tərəfindən işğalı Yaponiyanı təslimçiliyə sürüklədi. Missuri gəmisində kapitulyasiya aktını bir sıra səlahiyyətləri əlindən alınmış Yaponiya imperatoru imzaladı. Və Yaponiyaya hərbi dəniz və hava qüvvələri saxlamaq kvotası tətbiq edildi. Buna səbəb əlbəttə, Yaponiya imperator ordusunun işğalçı əməlləri idi...***

Tarixi misalı çəkməkdə məqsədimiz buna bənzər hadisələrin günümüzdə də yaşanması, amma oxşar hadisəyə fərqli reaksiyaların verilməsini dəyərli oxucularla bölüşməkdir. Ermənistan adlı oyuncaq dövlətin Azərbaycan torpaqlarını 30 il ərzində işğalda saxlaması və buna dünya birliyinin, iri dövlətlərin, beynəlxalq təşkilatların seyrçi qalması bizi narahat etməkdədir. Ermənilər azərbaycanlılarla münaqişəyə başlayanda bu hadisələrin nə ilə sonuclanacağını bilməyən az idi. Amma tədbir görmədilər, əksinə onu bəslədilər, silahlandırdılar, yeni torpaqlar ələ keçirməyə həvəsləndirdilər, Ermənistanı işğalçı kimi yetişdirdilər. Onlar isə torpaq ələ keçirmək azmış kimi, burada yaşayan insanlara qarşı misli görünməmiş vəhşiliklər, qətliamlar, soyqırımıları törətdilər. Bəşəriyyət yenə susdu, dünyanın seyrçi qaldığını görən ermənilər bir az daha azğınlaşdılar.

Bu gün regionda vəziyyət tamamilə dəyişib. Dünya güclərinin 30 ildə görə bilmədiyini, daha doğrusu, görmək istəmədiyini Azərbaycan cəmi 44 günə yerinə yetirdi. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq yad ünsürləri, xarici qüvvələri, işğalçı ordunu torpaqlarımızdan, Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazilərindən qovub çıxardı. Amma, hələ də proses məntiqi sonluqla tamamlanmayıb. Ermənistana qarşı Yaponiya imperator ordusuna tətbiq olunan qadağalar aid edilməyib. Yəni qonşu dövlətin torpaqlarına qəsd edən, işğalda saxlayan, insanları ən adi hüquqlarından məhrum edən, evindən qovan, öldürən, əsir və girov götürən bir dövlət sanki heç nə olmamış kimi yenə hədyanlar yağdırır, bizimlə ultimativ dildə danışmağa cəhd edir. Əlbəttə, buna son vermək üçün bəşəriyyətə qarşı cinayətlər törətmiş Ermənistan cəzalandırılmalıdır. Əks təqdirdə ədalət öz yerini tuta bilməz.

Ermənistana xarici ölkələrdən hərbi təyinatlı məhsulların idxalını qadağan etmək, o cümlədən öz imkanları hesabına hər hansı hərbi texnikanın və digər ağır silahların istehsal edilməsi yasaqlanmalıdır. Buna BMT TŞ nəzarət etməlidir. Bu, işğalçı ölkələrə də dərs olar.

44 günlük müharibə aldığı zərbələrdən dərs çıxarmayan rəsmi İrəvan hərbi xərclərini artıraraq, yeni silahlanmaya başlayıb. Məlumata görə, ölkənin müdafiə xərcləri 1,3 milyard dollar təşkil edib. Bu isə onu göstərir ki, Ermənistanın hərbi büdcəsi 40%-dən çox artıb və tarixdə ilk dəfə olaraq 1 milyard dolları keçib. Eyni zamanda, hərbi xərclər ənənəvi olaraq büdcədə ən böyük maliyyə tutumu olan sosial proqram üzrə xərcləri ilk dəfə üstələyəcək. Bü isə o deməkdir ki, məğlub Ermənistan yenidən silahlanmaqla vəziyyəti daha da gərginləşdirməyə çalışır və yeni müharibəyə hazırlaşır. Sərhəddəki son təxribatlardan sonra Ermənistan tərəfi açıq şəkildə sülh istəmədiyini göstərir. Hətta son vaxtlar revanşist qüvvələrin aktivləşməsi və yeni müharibə anonslarının gündəmə gətirilməsi diqqətdən qaçmır.

***Dəfələrlə şahidi olmuşuq ki, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrell Azərbaycana qarşı nəinki ədalətsiz mövqe nümayiş etdirib, hətta hadisələri təhrif etməklə və yalana əl atmaqla, görünməmiş həyasızlıq edib. Yenə də bu dırnaqarası "ali nümayəndə" erməni vəkili kimi çıxış edərək, "öz ənənəsinə" sadiqlik nümayiş etdirməklə, ikrah doğurmaqdadır. Görünür, hələ də buna görə utanmaq kimi bir niyyəti yoxdur, əksinə, yalana əl atmağa, utanmazcasına təhrifə yol verməyə, ədalətsizlik etməyə, bununla da həyasızlığa alışqanlığını sübut etməyə çalışır.***



# Erməni vəkili Borrelldən NÖVBƏTİ HƏYASIZLIQ

Diqqətə çatdıraq ki, fevralın 13-də Brüsseldə Ermənistan xarici işlər naziri Ararat Mirzoyanla birgə mətbuat konfransı zamanı yenə də Borrell açıq-aşkar yalan danışdı. Aİ-nin həmin bu "ali nümayəndəsi" ağ yalan olaraq diqqəti cəlb edən nitqinə, dediklərinə sanki özü belə inanırmış kimi özünü apardı. Halbuki, onun fikirlərinin absurd olduğunu kimsə təkzib edə bilməz. "Ermənistan tərəfinin Azərbaycan əsgərləri istiqamətində atəş açması təəssüf doğursa da, Azərbaycan qeyri-proporsional reaksiya verdi", - deyən Borrell lap həddini aşdı. Çünki bu fikir ədalətsizliyin, haqsızlığın son həddi olaraq qəbul edildi. Avropanın baş diplomatı postunu tutan bir şəxsin belə bir açıqlaması, ilk növbədə, onun özü üçün həddsiz dərəcədə utancverici sayılır. Onun belə bir açıqlaması qəbul olunan normalara nəinki saygısızlıq, hörmətsizlik, hətta həyasızlığın son həddi idi.

Belə görünür ki, erməni hərbçisinin Azərbaycan hərbçisinə atəş açması, özü də sülh təşəbbüsü ortada olduğu bir dövrdə təxribata əl atılması bu "baş diplomat" olan adamın başında fərqli, qeyri-normal fikirlər formalaşdırıbmış, az qala xırda bir dələduzluq olaraq qəbul edilirmiş və sadəcə təəssüf doğururmuş, amma buna Azərbaycan tərəfindən adekvat cavab verilməsi fəlakət sayılırmış. Bu qədər utanmazlıq bəlkə də bəşər tarixində görünməmişdi ki, bunu da ondan gördük. Son eskalasiyaya, erməni hərbçisinin Azərbaycan əsgərinə atəş açaraq onu yaralamasına görə rəsmi İrəvanı qınamaq əvəzinə Azərbaycanı hədəfə almağa ad qomaq da olmur. Əgər onu "baş diplomat" edən Avropa İttifaqı özü bir ad qoya bilirsə, buyursun.

Borrell İrəvanı qınamağa cəsarət etmədi, yoxsa bunu etmək istəmədi? Ümumiyyətlə, Borrell bununla nə etdi və nəyə nail oldu? İlk növbədə, özünün ermənipərəstliyini və ədalətsizliyini bir daha ortaya qoydu. Həyasızlığa əl atdığını növbəti dəfə təsdiqlədi. Bir daha sübut etdi ki, onun yanaşması da, münasibəti də ikili yanaşmadan başqa bir şey deyil. Yəni, həqiqətən də kimin günahkar və kimin haqlı olduğunu dərk etmək, qəbul etmək bu "baş diplomatın" başına sığışmır? Həqiqətən də dərk edə bilmir ki, atəşi açan tərəf, atəşkəsi və sakitliyi pozan, təxribat törədən tərəf günahkar hesab olunur? Bilmirmi ki, ittiham edərkən məhz ilk atəşi açanı deyil, buna cavab verəni hədəfə almaq ədalətsizliyin elə bir həddidir ki, buna ancaq həyasızlıq demək olar? Əgər bunlar onun başına sığışmırsa, onda onu niyə "baş diplomat" hesab etməlidir həmin o Avropa İttifaqı? İstənilən halda bu, elə Aİ-nin öz qayğısı, öz problemidir və bu barədə həmin o təşkilatın özü düşünsə və nəticə çıxarsa daha yaxşı olar, çünki bizim üçün məsələ artıq çoxdan bəllidir və özümüzə görə çıxardığımız nəticələrimiz də var.

Təbii ki, Borrellin kimliyi, daha doğrusu, simasızlığı bizə çoxdan bəlli idi. Biz onun Azərbaycana qarşı hansı şəkildə, özü də həyasızcasına qərəzli mövqe nümayiş etdirdiyinin dəfələrlə şahidi olmuşuq. Amma bu dəfə "baş diplomat" başını elə itirdi ki, sayıqlamaları ilə həddsiz dərəcədə həyasız olduğunu təkcə bizə yox, elə hamıya göstərdi. Bütövlükdə dünya ictimaiyyəti gördü ki, bu "ali nümayəndə" ali dəyərləri, haqqı, ədaləti, beynəlxalq normaları qətiyyən hesaba almır və yeri gələndə tapdalayır da. Sual oluna bilər ki, Avropa İttifaqı baş diplomat kimi onu qəbul edəndə hansı dəyərlərə əsaslanaraq qəbul edib? Axı onun bu vaxta qədər nümayiş etdirdiklərinin heç biri ali dəyər hesab oluna bilməz. Bəlkə elə Aİ-nin özünə də belə biri, belə bir həyasız lazım imiş ki, Azərbaycan kimi müstəqil siyasət yürüdən, heç kimdən asılı olmayan dövlətə qarşı utanmadan "hücumlar" etsin?

"Azərbaycan Ermənistan Müdafiə Nazirliyinin bir gün əvvəl baş vermiş insidentin tam araşdırılacağı ilə bağlı bəyanatına məhəl qoymayıb", deyən Josep Borrell bununla nəyi nəzərdə tuturmuş? Demək istəyirmiş ki, Azərbaycan tərəfi Ermənistan Müdafiə Nazirliyinin bəyanatından sonra heç bir reaksiya verməməli və insidentin sonsuza qədər və sonu olmayacaq araşdırılmasını gözləməli idi? Bəlkə onun dediyi o imiş ki, Azərbaycan öz tərəfinə, öz əsgərinə atılan güllələrə qətiyyən cavab verməməlidir? Yaxud, həqiqətənmi Borrell Azərbaycan tərəfinin cavab verməməsi ilə erməni snayperlərinin mümkün qədər çox Azərbaycan əsgərini öldürə bilməsinə şəraitin yaradılması barədə bir təklif irəli sürür? Doğrudanmı bu "baş diplomat" hesab olunan adımın, həmin o Borrellin başı bu qədər işləyir, yoxsa özünü bilərəkdən belə axmaqlığa qoyub? Bu qədər başsız olmaq mümkün deyil axı. Həmin bu "ali nümayəndə" gah deyir ki, Azərbaycan tərəfi proporsional cavab verməyib, gah da deyir ki, Ermənistan Müdafiə Nazirliyinin bir gün əvvəl baş vermiş insidentin tam araşdırılacağı ilə bağlı bəyanatına məhəl qoymayıb. Axı bu fikirlər də bir-birini təkzib edir. Çünki bəyanata məhəl qoyulmadığı barədə irad bildirən Borrell bununla demək istəyir ki, Azərbaycan tərəfi insidentə cavab verməməli, araşdırmanın nəticəsini gözləməli idi, amma proporsional cavab verilmədiyi o deməkdir ki, cavab verərkən eyni səviyyədə, eyni həddə cavab verilməli imiş. Bunlar qətiyyən üst-üstə düşməyən fikirlərdir. Baş diplomatın olmayan başında nələr olduğunu, əminik ki, özü də bilmir, amma nə gəldi sayıqlayır və dərhal da öz ermənipərəstliyini çox həyasızlıqla ortaya qoyur.

Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu dövrdə Ermənistana qarşı sanksiyaların tətbiqinin vacibliyini bir dəfə də olsa dilə gətirməyən Borrellə indi nə düşüb ki, belə axmaq fikirlər səsləndirir? Məhz 44 günlük müharibə zamanı dinc Azərbaycan şəhərlərini atəşə tutan Ermənistan tərəfini qınamayan bu adam niyə indi canfəşanlıq edərək, erməni vəkili kimi özünü aparır? Human Rights Watch (HRW) təşkilatının 2020-ci ilin sentyabr-noyabr ayları arasında gedən döyüşlər zamanı Ermənistan qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı raket hücumları təşkil etdiyi barədə hesabat dərc etməsinə baxmayaraq, Ermənistanı qınamayan Borrell indi niyə dilini dinc qoymur? Azərbaycanın şəhərlərinə atılan həmin o icazə verilməyən raketlər səbəbindən dinc əhalinin, şəhər sakinlərinin həyatını itirməsi deyil, şərti sərhəddəki cavab reaksiyası daha ağır təsir bağışladı Borrellə? Üstəlik, erməni snayperinin açdığı atəşi, sadəcə olaraq, "təəssüf doğuran" fakt hesab etdi, ardınca da Azərbaycanın cavabının proporsional olmamasına görə ölkəmizi hədəfə aldı və bu qədər ədabsizliyi, həyasızlığı, diplomatiyaya yaraşmayan tərzi özünə də "ali nümayəndə" olduğu quruma da çəkinmədən rəva bildi.

Bu qədər Azərbaycan həqiqətlərini, ölkəmizin işğala məruz qalmasını, torpaqlarımızın zəbt edilməsini, azərbaycanlılara qarşı törədilən soyqırımları, Xocalı kimi faciəni, insanlıq dramını, erməni separatçılarının ölüm, işgəncə təhdidi fonunda öz yurd-yuvasından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünün 30 ilə yaxın müddət ərzində əzabəziyyətlə yaşamasını dilə belə gətirməyən Borrellə nədənsə ermənilərin Azərbaycan torpaqlarını könüllü şəkildə tərk etməsinin "yer elədiyini" də xatırlayırıq. Ölüm, işgəncə, əsirlik təhdidi qarşısında qalan azərbaycanlıların qarlı qış axşamında başıaçıq, ayaqyalın dağ yolu ilə canını götürüb getməsini, nəticədə də don vurduğu üçün bəzilərinin ayaqlarını itirməsini, ömürlük şikəst qalmasını, öz avtomobilləri ilə, heç bir təhdid olmadan, bəzən köməkliklər belə olunaraq, başqalarının torpaqlarını tərk edən ermənilərlə müqaisə belə etmək üçün nə qədər ədalətsiz, hətta qansız olmaq lazım imiş. Bir milyondan artıq məcburi köçkünün olduğunu bir dəfə dilə gətirməyən, onların həyatı ilə 30 il ərzində bir dəfə də maraqlanmayan Borrell, nə əcəb Ermənistan tərəfinin onsuz da dəfələrlə şişirdilmiş olan 100 min erməni köçkünün olması barədə statistik göstəricisini bir də şişirdib 150 min deyir və azərbaycanlı qaçqınlara münasibətdə onillər boyu ağzına su alıb susan biri nədən bəs cəmi bir neçə gündən sonra ermənilərin könüllü şəkildə ərazilərimizi tərk etməsindən narahatlığını ifadə edir? Yəni bu qədər həyasızlığı kiminsə edəcəyini təsəvvürə belə gətirmək olmur və zənnimizcə Borrellin həmin o "təəssüf doğuran" fakt kimi dediyi yox, elə onun özünün Aİ adlı qurumda olması, özü də "ali nümayəndə", eləcə də "baş diplomat" olması təəssüf doğurur.

***İnam Hacıyev***

# QİSAS əməliyyatı: bir addıma bir addım



***Ölkəmizdə keçirilən möhtəşəm Prezident seçkilərindən sonra Ermənistanın buna reaksiyasız qalacağı əslində gözlənilməyən deyildi. 2020-ci ilin 44 günlük müharibəsində tamamilə uduzan, işğal etdiyi Azərbaycan torpaqlarından milli ordumuzun rəşadətli ilə çıxarılan, 44 günün sonunda isə artıq tab gətirə bilməyib ağ bayraq qaldıran Ermənistan ağlına da gətirə bilməzdi ki, onu 3 il sonra daha nələr gözləyir.***

Xankəndi istiqamətindən hücumlara son qoymaq bilməyən, üstəlik tarixi torpağımızda oturub oranı terrorizm yuvasına çevirən Ermənistan 2023-cü ildə Azərbaycan tərəfdən elə bir taktika ilə qarşılaşdı ki, bunu nə ağlına gətirə, nə də yuxusunda görə bilərdi. Beləliklə, Xankəndi həmin ilin 20 sentyabrında bir günlük lakol xarakterli anti-terror tədbirləri ilə tamamilə terrorizmdən xilas edildi. Baxmayaraq ki, burada yaşayan ermənilərə Azərbaycanın qanunları çərçivəsində qalıb yaşamaq təklif olundu, lakin onlar bununla nədənsə razılaşmadı və Xankəndini tərk etdilər. Xocalı, Xocavənd, Ağdərə də bu tədbirdən sonra azad olundu. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü tamamilə bərpa etdi.

2024-cü ilin başlanğıcında Prezident seçkilərinin keçirilməsi və Qarabağı və Şərqi Zəngəzuru düşməndən xilas edən Ali Baş Komandanın qələbəsi ilə bitməsindən sonra isə bəli, Ermənistan sərhədlərimizdə bir münaqişə törətməli idi. Çünki bu, onun köhnə peşəsidir. Zaman-zaman şahidi olmuşuq, elə ki, Azərbaycanda uğurlu, əlamətdar bir hadisə baş verib, axşama və ya səhərə sərhədlərimizdə erməni bir hadisə törədib, diqqətləri həmin xoş hadisədən uzaqlaşdırıb.

Fevralın 12-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə Ermənistan Silahlı Qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən açılan atəş nəticəsində hərbi qulluqçumuzun yaralanması da Ermənistanın Azərbaycanın uğurlarına qarşı reaksiyası, həm də Avropa Birliyinin erməniprəst missiyasının təzahürü idi.

### Düşmən təxribatları heç bir zaman cavabsız qalmayıb, qalmır və qalmayacaq

Dövlət başçısı, Ali Bas Komandan cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, düşmən təxribatlari heç bir zaman cavabsız qalmayıb, qalmır və qalmayacaq. Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın fevralın 12-də törətdiyi və bir sərhədçimizin yaralanması ilə nəticələnən təxribata qisas əməliyyatı ilə cavab verməsi də dövlət başçısının söylədiyi qətiyyətli fikrin təzahürü oldu. Dəfələrdə Azərbaycan Ermənistana qarşı qisas əməliyyatı həyata keçirib. Nə bir yaralımızın, nə də şəhidimizin qanı yerdə qalmayıb.



Ermənistan siyasi-hərbi rəhbərliyi nə üçün dəfələrlə törətdiyi əməllərə Azərbaycandan qarşılıq almasına baxmayaraq hələ də anlamaq istəmir ki, heç vaxt Azərbaycan tərəfi əsgərinin qanı yerdə qoymur. Elə fevralın 13-də əməliyyat nəticəsində əsgərimizə atəş açılan Ermənistan Silahlı Qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu tamamilə darmadağın edildi, döyüş mövqeləri susduruldu. Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilərin olması barədə məlumatlar mövcuddur.



Ermənistan əmin olsun ki, onun Azərbaycan-Ermənistan şərti dövlət sərhədində əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn hər bir təxribatına bundan sonra daha ciddi və qəti tədbirlərlə cavab veriləcəkdir.

### Ermənistan hər zaman havadarlarına güvənib

Ermənistan tərəfindən törədilən son hadisə ilə xəyalən 90-cı illərə gedib o zamandan bu günə kimi nadan qonşumuzun havadarlarının dəstəyi ilə törətdikləri hadisələri xatırlayıram. Bütün bunların fonunda isə belə bir qənaətə gəlmək olar ki, Ermənistan əslində havdarları olmadan heç nədir.



Dövlətlər var ki, dünyada baş verən hadisələrə əsasən qızışdırıcı mövqedə dayanır. Məqam yetişən kimi iki dövləti bir-birinə qarşı qoymaqla, əslində, öz məqsədinə xidmət edir. Onların qızışdırıb ortalığa saldığı, xalqının qırğınına səbəb olduğu, səfalət içərisində yaşamasına rəvac verdiyi dövlətlərdən biri də Ermənistandır. Necə ki, 90-cı illərdə qızışdırılıb meydana salınmışdı, eləcə də indi. Amerika və Fransının, Avropa Birliyinin Azərbaycanla son münasibətləri fonunda müharibədən böyük itkilərlə çıxmış, iqtisadi cəhətdən böhran yaşayan Ermənistanın varlığının yenidən hiss olunması bax bu havadarların dəstəyi ilədir. Bu ədaləti görməyə gözü olmayan dövlətlərin xislətini isə birinci dəfə deyil ki, görürük.

Bunlar həmin dövlətlərdir ki, ölkəmizin rəhbəri 2020-ci ilə qədər dəfələrlə onlardan Azərbaycan həqiqətlərini tanımağı tələb etmişdi. Həmin beynəlxalq təşkilatları Ermənistan-Azərbaycan münaqişəsinin həllinə çağırmışdı. Həm də sülh yolu ilə. Lakin nədənsə onlardan heç vaxt bir addım görmədik. İlləri yola verə-verə susdular. Bundan istifadə edən ermənilər isə yeni torpaqların işğalı xülyasına düşdülər. Belə olan təqdirdə isə ölkəmizin başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin 2020-ci il sentyabr ayının 27-də erməni vəhşiliyinə son qoymaq əmri ilə İkinci Vətən Müharibəsi başlandı.

### Dünya Azərbaycanın gücünə şahiddir

Bu müharibə Azərbaycanı yenidən dünyaya tanıtdı. Dünya xalqımızın timsalında vətənpərvərliyə, həmrəyliyə, birliyə şahid oldu. Ötən 20 ilə qədər dövrdə gənclərin vətənpərvər ruhda böyüməsinə, onların torpaq üçün canlarından keçməyə hər an hazır olduqlarına, hər bir vətəndaşın Ali Baş Komandanın əmrini səbrsizliklə gözlədiyinə şahid oldu. Şahid oldu ki, ermənilər həqiqətən çox vəhşi, tamahkar, acgöz millətdir.

27 sentyabrdan 10 noyabradək 44 gün ərzində yüzlərlə şəhid, qazimizə, evi-eşiyi dağıdılan dinc sakinlərə, öldürülən günahsız körpələrə şahid oldu dünya. Bir-birinin ardınca işğaldan azad edilən torpaqlarımızdan çəkilən videolent vasitəsilə ermənilərin vandallığına, torpaqlarımızda daşı daş üstündə qoymadıqlarına, məscidlərimizə etdikləri hörmətsizliyə, tarixi abidələrimizi məhv etdiklərinə şahid oldu. Bütün bunlar özözlüyündə təsdiq etdi ki, bu torpaqlar Azərbaycana məxsusdur, erməni öz torpağında bu qədər vəhşiliyi heç bir zaman törətməzdi.

### Azərbaycan düşməni diz çökdürdü

Birinci Vətən Müharibəsində havadarlarının dəstəyi ilə özlərini güclü dövlət kimi qələmə verməlerinin bu müharibə zamanı tamamilə xülya olduğu öz təsdiqini tapdı. Düşmən erməninin torpaqlarımızdan bir xəstəlik kimi kökü kəsildi. Onlar biabırçı vəziyyətə düşdülər. Çirkinliyin bütün növlərindən istifadə etsələr də, döyüşmək üçün gəncləri zorla maşınlara yığıb cəbhəyə gətirsələr də, döyüşə yaşlı insanları və qadınları cəlb etsələr də, Milli Ordumuzun gücü, torpaq aşiqi oğullarımız qarşısında tab gətirə bilmədilər. Çünki bizim qəhrəmanlığımıza Vətən sevgisi qarışmışdı. Çünki Azərbaycan xalqı mentaliteti, qədim köklərə malik ənənələri olan xalqdır. Torpaq bu xalq üçün namus, şərəfdir. Biz 2020-ci ilin 44 günündə namusumuzu, şərəfimizi xilas etdik. Qarabağı 30 illik işğaldan azad edid həsrətində olduğu anasının qucağına-Azərbaycana verdik. 44 gün bir qərinəyədək hicranın vüsal günü oldu.

Müharibənin Zəfərlə başa çatmasında hər kəsin əməyi oldu. Bu ölkənin həkimi, müəllimi, jurnalisti, tələbəsi, yeniyetmə-gənci-hər kəs Azərbaycanın qələbəsi üçün çalışdı, haqq səsimizi dünyaya çatdırdı. Kütləvi informasiya vasitələrinin müharibə dövründə də, postmüharibə dövründə də fəaliyyəti Zəfərimiz qədər möhtəşəm oldu. Cəbhəyə yollanan jurnalistlərimizin süjetləri, yazıları, videokadrları dünyaya yayıldıqca, bununla bir vaxtlar Qarabağın azadlığına susanların gözlərinə dağ çəkildi. Mətbuatımız İkinci Vətən Müharibəsinin tarixini salnamələşdirdi. Elə bir salnamə ki, bu gün istənilən hadisənin tarixi ardıcıllığını asanlıqla əldə edib, məlumatlanmaq mümkündür. Bu salnamələr həmçinin də yetişməkdə olan gənc nəslin tərbiyəsində mühüm rol oynayır. Çünki mətbuat ən təsirli təbliğat-təşviqat vasitəsidir. Gün ərzində televiziya, radiqo, sosial şəbəkələr vasitəsilə informasiya alan yeniyetmə-gənclər şəhid əsgər və qazilərimizin Qarabağda göstərdikləri şücaətərlə tanış olur, qürur duyur və öz həyatlarını da bu milli-mənəvi dəyərlər üzərində qururlar.

### Biz qisası bu gün alırıq, qiyamətə saxlamırıq

Həmçinin şanlı zəferi, düşmən üzərində qələbəsidir. Yüz illər bundan sonra da XXI əsrin Azərbaycanının qürurla anacağımız tarixidir. Həm Birinci, həm də İkinci Vətən müharibələrində həyatlarını itirən dinc sakinlərin, şəhid və qazilərimizin qisasıdır. Azərbaycanın qədim dövləti Səfəvilərdən sonra torpağın azad olunması üçün edilən ilk mücadilə, ərazi bütövlüyümüz, tamlığımızdır.

Bu gün Qarabağın üzü gülür, o, qara libasını çıxarıb, al-əlvan donunu əyninə alıb. Qarabağ yenidən qurulur. Qurulur ki, ata-baba torpaqlarından zorla didərgin salınan, 30 il məcburi köçkün, qaçqın statusu ilə yaşayan minlərlə insan doğma yurd-yuvasına qayıtsın. Artıq Böyük Qayıdış başlayıb. Artıq yüzlərlə soydaşımız ata-baba torpaqlarımıza, doğma yurduna qayıdıb. Qarşıdakı illərdə isə onların hər biri qayıdacaq.

Düşmən bunları görür və gördükcə də gözünə dağ çəkilir. Təxribata əl atır, xalqın xoş əhvalruhiyyəsini pozmağa çalışır. Lakin unutmasın ki, hər bir addımına milli ordumuz bir addım ilə qarşılıq verəcək. Biz qisası bu gün alırıq, qiyamətə saxlamırıq.

***Mətanət Məmmədova***



**Cənab Prezident,**
**Müzəffər Ali Baş Komandan!**

***“Səhliyalı” şirkətinin rəhbərliyi və kollektivi adından Sizi 07 fevral 2024-cü il növbədənkənar Prezident seçkilərində möhtəşəm qələbəniz münasibəti ilə səmimi qəlbdən təbrik edirik.***

***Sizin bu seçkilərdə qələbəniz Zəfər qələbəsinin davamıdır və Azərbaycan Respublikasının bütövlüyünün rəmzidir. Tarixi Azərbaycan torpaqlarının geri qaytarılmasının başlanğıcıdır.***

***Möhtərəm cənab Prezident, Zati-alinizə ən xoş istəklərimizi çatdırır, Ulu öndər Heydər Əliyevin siyasi yolunun davam etdirilməsində və bütöv Azərbaycanın gələcəyi naminə fəaliyyətinizdə Sizə uğurlar arzu edirik!***

**Hörmətlə,**
**“Səhliyalı” şirkətinin direktoru**
**Rövşən Səmədov**

SƏHLİYALI BS 1996


trendyol
Cənab Prezident!
"Trendyol" şirkəti adından
Sizi 07 fevral 2024-cü il
növbədənkənar Prezident
seçkilərindəki qələbəniz
münasibəti ilə təbrik edirik.
Zati-alinizə ən xoş istəklərimizi çatdırırıq.

# Torpaq, uğrunda ölən varsa

## Vətənpərvər gənclər dövlətin möhkəmliyinin qarantıdır





***Vətən sevgisini dərk etmək üçün, ilk növbədə, "Vətən nədir?" sualına cavab tapmaq lazımdır. Bu suala keçmişdən bu günə bir çox insanlar tərəfindən müxtəlif cavablar verilib, bir çox dahi bununla bağlı müdrik kəlamlar deyib. Əslində, vətən anlayışı hər kəs üçün fərqli mənalar kəsb edə bilər, lakin bütün yollar bir nəticəyə gətirib çıxarır – Vətən müqəddəsdir.Vətən, milli düşüncəli və millət sevdası ilə yaşayanların toplaşdığı yerdir. Azərbaycanın milli dövlətçilik strategiyası da həmişə bu istiqamətdə aparılıb.***

Prezident İlham Əliyevin həyata keçirdiyi konsepsiyaya görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlətçilik prinsipində dini dəyərlərin payına da önəm verilir. Dövlətimiz ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına da xidmət edir. Bu istiqamətdə atılan hər bir addım dədə-babalarımızdan bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir."Torpaq, uğrunda ölən varsa, vətəndir" deyilməyib boşuna. Bir parça torpağı vətən edən odur ki, onun uğrunda canını fəda edə bilən insanlar var. Ona görə də uğrunda canının verilə biləcəyi torpaqları vətən kimi ifadə etmək olar. Bununla belə, "Vətən nədir?" suala verilə biləcək cavablar bunlarla məhdudlaşmır. Vətən hər şeydən əvvəl bir xalq üçün müstəqillik, suverenlik rəmzidir. Çünki heç bir xalq düşmən tapdağı altında olan torpaqda yaşamaq istəmir və yaşaya bilməz. Əslində, vətən elə torpaqdır ki, onu düşmən boyunduruğunda saxlamaq olmaz. Vətən bizim ümumi evimizdir və o evin sahibi yadlar ola bilməz.Dövlətimiz özündə həm milli, həm də dini dəyərləri ehtiva edən mənəviyyatlı bir cəmiyyətin sütunudur. Ölkə başçısı İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir, bu istiqamətdə dövlət proqramları təsdiq edir. Dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və dini-milli dəyərlərini qoruması önə çəkilir. İndi Dövlətçilik siyasıtində "gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərmağan edilməlidir" prinsipi əsas götürülür.

Hamımızın anadangəlmə, yaradılışdan bir vətəni olur - doğulduğu, böyüdüyü, son nəfəsini aldıqdan sonra əbədi yuxuya getdiyi torpaqlar. Hamımız sevincimizi, kədərimizi o torpaqda yaşayırıq, dərdimizi onunla bölüşür, sevincimizi onunla paylaşır, ruzimizi ondan alırıq. İnsanlar öz kökünü, bir millətə mənsubluq hissini adına vətən dediyimiz torpaqlarda qazanır. Ona görə də insanlar dünyaya gələndən ölənədək vətən üçün yaşayır, vətən üçün çalışırlar. Müharibələr vətən üçün baş verir, qələbələr vətən üçün qazanılır. Vətən sevgisi ata mirası kimi nəsildən nəsilə ötürülür, vətən sevdası beləcə müqəddəsləşir.Ailə və ağsaqqallıq institutları, doğma dil, din, əxlaqi və mental dəyərlərə söykənən dövlətçilik sistemi əslində bizim milli-mənəvi sərvətimizdir, şansımızdır. Sarsılmaz dövlətlər bu dəyərlər üzərində yaranır və inkişaf edir. İndi o dövlətlər güclüdür ki, onlar tarixləri ilə bu günlərinin sintezini düzgün qura biliblər. Azərbaycan öz tarixi böyunca məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub, inkişaf edib və elə də davam edəcək.Vətən sevgisini mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, səmada dalğalandırdığımız bayrağı, danışdığımız dili, həm yaşayıb, həm də yaşatdığımız mədəniyyəti sevmək kimi izah etmək olar.Əslində, vətən sevgisi sırf sözlə ifadə oluna bilməyəcək bir hissdir. Vətənini sevən hər bir vətəndaş vətəninin şöhrətini yüksəltmək arzusunda olmalı və bu yolda çalışmalıdır. Yəni vətən sevgisi doğma yurdumuzda əmin-amanlıq, firavanlıq, sabitlik şəraitində yaşamaq üçün çalışmaq tələb edir.Vətənpərvərlik təkcə indiki zamana dair hiss və düşüncələrimizlə deyil, həm də gələcək üçün hisslərimiz, ideallarımız və məsuliyyətlərimizlə əlaqəli bir anlayışdır. Bu kontekstdə gələcək nəsillərə miras qoyacağımız vətən sevgisi, onlarda vətən sevgisini aşılamaq baxımından böyük əhəmiyyət kəsb edir. Ona görə də vətən sevgisi təkcə keçmişdə yaşamış əcdadlarımıza, bu torpaqlar uğrunda vuruşmuş görkəmli Azərbaycan sərkərdələrinə, Vətən müharibələrində şəhid olmuş oğullara minnətdarlıq borcu deyil, həm də gələcəkdə vətənin əmanət ediləcəyi gənclərə qalmalı olan müqəddəs bir mirasdır.Qəlbi vətən sevgisi ilə dolu olan insanlar vətəninə, millətinə faydalı olmaq arzusu ilə özlərini inkişaf etdirir, peşəsini mükəmməl şəkildə icra edir. Vətənini, millətini sevən insanların qəlblərindəki sevgi bəşəriyyət üçün faydalı olmağı prioritet edir. Əslində, vətənini sevən bir insan dünyanı sevir, ölkəsində sülh olmağını istəyən insanlar dünyada sülhü arzulayır. Azərbaycanın şanlı tarixinin vətən sevgisi ilə dolu insanların göstərdiyi qəhrəmanlıq və fədakarlıqlarla zəngin olması da bizim şansımızdır. Əsrlər boyu bu torpaqlarda yaşayan insanların bir idealı olub, o da vətən sevgisi. Tariximiz boyu yadellilərə qarşı döyüşən böyük sərkərdələrin yolu ilə addımlayan qəhrəman Azərbaycan xalqı üçün vətənpərvərlik həyat tərzinə çevrilib.Qəlbi vətən sevgisi ilə dolu olan xalqımızın fədakar övladları yüz illər əvvəl olduğu kimi bu gün də vətənlərini qorumaq üçün hər cür fədakarlıq edirlər. I və II Qarabağ müharibələrində qəhrəmanlıq edən, şücaət göstərən, şəhidlik zirvəsinə yüksələn oğullarımızı da bu yola vətən sevgisi, yurd sevdası sövq etdi.Nəticə etibarı ilə vətən sevgisi, xəmirində müqəddəslik və mənəviyyat olan xüsusi bir məfhumdur. Mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, səmada dalğalandırdığımız üçrəngli bayrağı, danışdığımız dili qorumaq üçün hər birimiz səfərbərik. Minillərin sınağından keçən vətənpərvərliyimiz bizim həyat tərzimiz, yaşam standartımızdır. Buna görə də qloballaşan dünyada, dəyərlərin, mənəviyyatın getdikcə yox çıxdığı cahanda gələcək nəsillərin bu ruhda yetişdirilməsi vətənpərvərliyin tələbidir. Unutmaq olmaz ki, qəlbi vətən sevgisi ilə dolu olan insanlar təkcə öz ölkəsi üçün deyil, həm də dünya üçün faydalıdırlar. Uşaqların vətənpərvər ruhda böyüməsi, gəncliyin milli tərbiyə alması bir dövlətin gələcəyinin qarant altına alınması deməkdir.







***Lalə Mehralı***

# Əli Kərimli Nurəddin Məmmədlini yeni simada gündəmə gətirir

*Çox vaxt o fikir səslənir ki, "düşmən öz içimizdədir". Bu gün dağıdıcı müxalifətin ölkəmizin milli və dövlətçilik maraqlarına qarşı düşmən mövqeyindən çıxış etməsini müşahidə etdikdə, həqiqətən də, düşmən öz içimizdədir - deyə söyləməmək mümkün deyil. Niyə Əli Kərimli, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Gültəkin Hacıbəyli, Arif Hacılı və xaricdəki antimilli ünsürlə doğulub, boya çatdıqları dövlətinə və xalqına düşmən kəsiliblər? Pul və mənəvi dəstək bir o qədər vacib və şirindir? Təəssüf ki, kimlər üçünsə dünya malı keçəri, kimlər üçünsə şirindir. Dağıdıcı müxalifət üçün ikinci həyati əhəmiyyət daşıyır.*



Çarpışmalar, qarayaxmalar, boşboğazlıqlar yalnız və yalnız xarici maraqlı dairələrdən daha çox maliyyə vəsaiti əldə etməkdir. O dərəcədə pula aludə olublar ki, torpaqlarımızın işğaldan azad edilməsinə qısqanclıqla yanaşdılar. Xankəndidə bayrağımızın ucaldılmasına, paradın keçirilməsinə və nəhayət, 7 fevral növbədənkənar prezident seçkilərində səsvermənin keçirilməsinə kölgə salmaq üçün hər cür çirkin vasitə və üsullardan istifadə etdilər. Hətta xalqın qələbə sevincinə kölgə salmaqdan çəkinmirlər. Əli Kərimli sosial şəbəkə hesabında paylaşdığı statusunda yazır ki, "Qarabağı işğaldan azad etmişik deyə, məqsəd və niyyətimizdən əl çəkməli, üzləşdiyimiz problemləri qabartmamalıyıq?". Bu statusu ilə Ə.Kərimli xalqın qələbə sevincini həzm edə bilmədiyini nümayiş etdirir. Həm də təsdiq edir ki, o, xalqla həmfikir ola bilməz, onun həyat mənbəyi xaricdəki ağalarıdır.

### Nurəddin Məmmədli kordan, keçəldən fərqlənmədiyini nümayiş etdirir

Dağıdıcı müxalifət düşərgəsində vəziyyət o həddə çatıb ki, hər kəs yaşınabaşına baxmadan trolluq edir. Yazı yaza bilməyən, sosial şəbəkələrdə paylaşım etməyi bacarmayanlar dostlarının, tanışlarının bilik və bacarıqları hesabına Əli Kərimlinin qrupda yazdığı tezisləri paylaşırlar. Bu cür plagiatlıqlarına, özlərinin deyil, başqalarının başmağını geyinib, şellənməyə çalışmalarına görə qınaq obyekti olublar, ittihamlara məruz qalıblar, yenə də əməllərindən əl çəkməyiblər. Dəfələrlə ünsürlər buna görə bir-birini ifşa da ediblər. ABŞ-da yaşayıb, dövlət departamentinin qaranlıq niyyətli, qara adamların, qara fikir böyük həvəslə yayan Sevinc Osmanqızı ötən həftə TV verilişlərinin birində Nurəddin Məmmədli ilə Fuad Qəhrəmanlını buynuzuna alıb, onları o ki var qınamışdı. Demişdi ki, F.Qəhrəmanlı və Nurəddin Məmmədli başqalarının yazdığı məqalələri öz adlarından sosial şəbəkələrdə yayırlar. Əslində, S.Osmanqızı bu məsələdə haradasa haqlıdır. Düzdür, aralarından pişik keçdiyi üçün hazırda tərəflər bir-birini daşlayırlar. Lakin kimin haqlı, kimin haqsız olduğu belə məqamda üzə çıxır. Məlum olan isə ondan ibarətdir ki, Nurəddin Məmmədli iki dəfə Azərbaycan professoru olmasına baxmayaq qandığı qrafa, dərk etdiyi məsələ yoxdur. O gün N.Məmmədlinin səhifəsindən paylaşılan statusda qeyd olunur ki, guya Ermənistanda revanşistlərin fəallaşması Azərbaycan üçün təhlükə yarada bilər. Bu biçarə anlamır ki, revanşistlərin və digər hayların fəallaşması nəyi dəyişəcək? "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar" deyiblər. Nə qədər Ermənistandakı tör-töküntülər təxribatlara meyil göstərəcəklərsə, bir o qədər itkilərə məruz qalacaqlar. Necə ki, 2024-cü ilin fevralın 12-də sərhədçimizi yaralamalarının qarşılığında 6 nəfər erməni məhv edildi, 3 nəfər erməni isə yaralandı.

### AXCP-də hər kəs peşəkar trol olmağa can atır

Nurəddin Məmmədlinin səhifəsindən paylaşılan beş-altı cümləlik statusunda iqtisadi, siyasi, hərbi və digər mələlərə münasibətlər bildirilib, təbii ki, tənqid edilməklə: "Azərbaycana geniş sanksiyaların tətbiq olunması mümkündür. Təəssüf ki, bütün bunların fonunda ölkəni gözləyən total böhrandan qurtarmaq üçün hökumətin kifayət qədər nə ehtiyat resursları, nə də real plan və proqramları yoxdur. Ermənistanda revanşist meyillər getdikcə güclənir. Ermənistanın Qərb dünyası və digər güclü dövlətlərlə əməkdaşlığı genişlənir, ordunun müasir silahlarla təminatı dərinləşir. Ermənistanın Avropa İttifaqı ilə strateji əməkdaşlıq, o cümlədən, viza rejiminin sadələşdirilməsi üçün danışıqlara başlayacaqları barədə məlumatlar paylaşılır. Məsələnin ən təhlükəli cəhətlərindən biri də Rusiyanın yenidən Ermənistanı müasir silahlarla təmin etməsi və ənənəvi tarixi əlaqələrin bərpası üçün səylərin artırılmasıdır. Bütün bunlar ölkəmizin yaxın gələcəkdə qarşılaşa biləcəyi reallıqlardır".

Göründüyü kimi, N.Məmmədlinin statusunu oxuyarkən göz önünə bu paylaşımı edənin ağıldan kəm, qoldan əzələli nataraz adam gəlir. Çünki düz-əməlli ağlı olan şəxs bu cür ifadələrdən qaçar və sayıqlamanın ona heç də başucalığı gətirməyəcəyini anlayar. Ancaq görünən ondan ibarətdir ki, N.Məmmədli özünü ağıldan kəm, nataraz məxluq kimi təqdim edir. Başa düşmür ki, Azərbaycan elə bir gücə, qüdrətə malik dövlətə çevrilib ki, hər hansı bir qətnamə və ya sanksiya ilə onu qarşıya qoyduğu məqsədlərindən döndərə bilməz. İkincisi isə, N.Məmmədli Almaniya nasist partiyasının fəal üzvü Frank Şveberin təklifi ilə Azərbaycanın AŞPA-da səsvermə hüququndan məhrum olunmasını nəzərdə tutursa, bu qətnamə kağız parçasından başqa bir şey deyil. Artıq özləri də bunun fərqinə varmağa başlayıblar. AŞPA rəhbərliyi tezez Azərbaycanla əlaqə saxlayıb, münasibətləri itiləşdirməyə çalışır. Bu baxımdan, problem aradan qaldırılacaq, söz yox ki, Frank Şveber və digərləri öz qaba hərəkətlərinə görə Azərbaycandan üzr istədikləri halda.

**İLHAM ƏLİYEV**

ANALİZ



# İran hakimiyyəti seçici laqeydliyini gizlədir



*İranda fevralın 14-də əsas funksiyası ölkənin ali liderini seçmək olan hökumət orqanı olan Ekspertlər Şurasına namizədlər üçün seçki kampaniyası başlayıb. Üç həftədən az vaxt qalan səsvermə yerli parlament olan Məclisə seçkilərlə paralel keçirilməlidir. Tənqidçilər iddia edirlər ki, İran rəhbərliyi güclərin mümkün balansı ilə bağlı rəy sorğularının təfərrüatlı nəticələrinin dərcinə qadağa qoyub, çünki fəallığın səviyyəsi son dərəcə aşağı olacağını vəd edir. Ekspertlərin fikrincə, mühafizəkar qanad siyasi sahədə total təmizləmə aparır.*



İranın Seçki Qərargahı Ekspertlər Şurasına seçki kampaniyasının başladığını açıqlayıb. Rəsmi məlumatlara görə, İranın bütün əyalətlərindən namizədlərdən ümumilikdə 500 ərizə təqdim edilib. Bununla belə, yerli tənzimləyici orqan olan Konstitusiyanın Mühafizəçiləri Şurası tərəfindən yalnız 144 namizədin səsverməsinə icazə verilib. Filtrdən çıxarılanlar arasında İranın keçmiş prezidenti Həsən Ruhani də var.

Səkkiz ildən bir keçirilən Ekspertlər Şurasına seçkilər martın 1-nə təyin edilib. Bundan sonra parlamentdə səsvermə keçirilməlidir. Əvvəlki seçkilərdə mandatların əksəriyyətini artıq almış mühafizəkar düşərgə üçün bu, güc sınağı olacaq - 2022-2023-cü illərin qüdrətli etiraz hərəkatının başlanmasından bəri ilk dəfədir ki, onun ölümü fonunda güclənir. gənc kürd qadın Məhsa Əmini. Patrul tərəfindən döyüldüyü iddia edilən 22 yaşlı qızın "uyğun şəkildə hicab geyindiyi" iddiası ilə öldürülməsi hökumət əleyhinə hərəkata səbəb olub.

Hakimiyyət orqanlarının ən böyük narahatlığı seçkilərdə iştirakla bağlıdır. "Amwaj" mediasının yazdığına görə, Tehran seçicilərin laqeydliyinə işıq sala biləcək rəy sorğularının nəticələrinin dərcinə mane olmağa çalışır. Belə bir şəraitdə İslam Respublikası daxili işlər nazirinin müavini Məhəmməd Şahçeraqinin fevral ayında verdiyi açıqlamaya diqqət çəkilib ki, son sorğular əhalinin martın 1-də seçkilərə getməyə marağını göstərib. Onun sözlərinə görə, bu cür araşdırmalar "son iki aydır" ortaya çıxır.

İslahatçı düşərgənin nümayəndəsi Abbas Abdi qeyd edib ki, bu cür bəyanatlara "heç kimin inanmağa əsası yoxdur". "Nüfuzlu agentliklərə sorğu keçirməyə və nəticələrini ictimaiyyətə açıqlamağa icazə versələr daha yaxşı olar" dedi və əlavə etdi ki, səlahiyyətlilər "nəticələri öz xeyrinə görmədikləri üçün" araşdırmaların dərcini qadağan etdilər.

Hakimiyyət üçün xoşagəlməz olan sorğulardan biri də İranlı Tələbələr üçün Sosioloji Mərkəz (ISPA) tərəfindən aparılıb və nəticədə respondentlərin 28%-dən azının seçkilərə getməyə hazır olduqlarına əmin olduqları müəyyən edilib. Düzdür, ISPA analitikləri dekabrda hesabatdan yalnız çıxarışlar təqdim ediblər. Bu, çox güman ki, mühafizəkar dairələri qorxudub, çünki bu ilin yanvarında Fars adı açıqlanmayan araşdırmalara istinadən xəbər verir ki, martın 1-də seçici fəallığı ən azı 40% olacaq.

Hakimiyyət, əlbəttə ki, seçkilər yolu ilə legitimləşmədə maraqlıdır. Burada çox şey dəyişməyib. Bir tərəfdən xalqın dəstəyini nümayiş etdirməlidir və bunun üçün başqa müqayisəli mexanizm yoxdur. Digər tərəfdən, etiraz düşüncəli ictimaiyyətə vəziyyətin sabit olduğunu, alternativin olmadığını göstərmək lazımdır. Digər sual ondan ibarətdir ki, indi bu legitimliyi seçki yolu ilə nümayiş etdirmək çox çətindir.

Seçkilərdə alternativ düşərgədən əhəmiyyətli namizəd olmayacaq. Çox mötədil və sistemli islahatçı, hətta o qədər də dəstək görməyən Ruhaninin Ekspertlər Şurasına seçkilərdə iştirakına belə icazə verilmədi. Ancaq bu vəziyyətdə belə, hər ehtimala qarşı buna imkan verməmək qərarına gəliblər. Mühafizəkarlar tam təmizlənməyə gedirlər.

Ekspert aşkar nəticəni mühafizəkar düşərgənin mövqelərinin möhkəmlənməsi və eyni zamanda, aşağı fəallıq adlandırır. Bu vəziyyətdə hakimiyyət qəribə vəziyyətdədir ki, bir tərəfdən onların səsvermə keçirməmək və ya qanuniləşdirmənin başqa üsullarından keçmək imkanı yoxdur, digər tərəfdən isə bu seçkilər açıq-aydın olmayacaq. axtardıqlarını ver.

RAKURS

**V.SALAH**

# Ünvanlı dövlət sosial yardım necə tətbiq olunur?



*"Ünvanlı dövlət sosial yardımı aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımıdır". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Xanlar Sətullayev deyib. Vəkil bildirib ki, orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailə aztəminatlı ailə hesab olunur: "Ehtiyac meyarı - əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan həddir. Sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır.*

Ailənin orta aylıq gəliri - ailənin gəlirinin orta aylıq göstəricisidir. Ailənin son bir il ərzində əldə etdiyi gəlirinin 12 aya bölünməsi yolu ilə tapılır. Ailənin gəlirləri dedikdə ailə üzvlərinin bütün növ gəlirləri, o cümlədən ailə üzvlərinə bağışlanmış hədiyyələr, mülkiyyətdən, ailə üzvlərinə məxsus əmlakdan, şəxsi yardımçı təsərrüfatdan əldə olunan və yaxud əldə oluna biləcək pul və natural formada gəlirlərinin toplusu başa düşülür. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2024-cü il üçün ehtiyac meyarının həddi 270 manat məbləğində müəyyən edilmişdir. Ünvanlı dövlət sosial yardımı almaq hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər. Həmin səbəblərə daxildir:

### VƏKİL AÇIQLADI

ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə və ya 8 yaşına çatmamış uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması, müvafiq icra hakimiyyəti orqanında dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na əsasən ailəni təmsil edən yetkinlik yaşına çatmış və əmək qabiliyyətli şəxs yaşayış yeri üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin verdiyi ailə tərkibi haqqında arayış əsasında notariat orqanı tərəfindən təsdiq edilmiş ərizə ilə sosial yardımın alınması üçün müraciət edə bilər.

"Bununla əlaqədar olaraq, təmsilçi elektron formada müraciətin qeydiyyata alınması məqsədi ilə "Elektron hökumət" və ya Nazirliyin "e-sosial" internet portallarında yerləşdirilmiş "Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi" elektron xidmətindən istifadə etməklə "Ərizə-bəyannamə"ni doldurараq "Ünvanlı yardım" (VEMTAS) altsisteminə göndərir. Həmin Qaydaların 3.1-ci bəndinə uyğun olaraq sosial yardımın alınması ilə bağlı edilmiş müraciətlər VEMTAS tərəfindən araşdırılır və sosial yardımın təyin olunması və ya təyin olunmasından imtina edilməsi barədə müvafiq qərar çıxarılır. Sosial yardımın təyin olunması barədə qərar çıxarıldığı hallarda sosial yardımın məbləği və təyin edilmə müddəti, təyin olunmasından imtina edilməsi barədə qərar çıxarıldığı hallarda isə imtinanın səbəbi göstərilməklə bu barədə VEMTAS tərəfindən Qaydaların 3.8-ci bəndinə əsasən "Ərizə-bəyannamə"də qeyd edilmiş əks əlaqə vasitəsinə məlumat göndərilir.

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi hüququna baxılması üçün vətəndaşlar elektron qaydada www.sosial.gov.az və www.e-gov.az internet portalları vasitəsi ilə müraciət edə bilərlər. Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 (bir) il müddətinə təyin olunur.

Sosial yardım ayda bir dəfə aztəminatlı ailənin təmsilçisinin adına olan kart hesabına mərkəzləşdirilmiş şəkildə tam məbləğdə və nağdsız qaydada ödənilir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "Ən ucuz evlər: XIRDALAN, SARAY, QARADAĞ"



"Bildiyimiz kimi, torpaqların sayı məhduddur və ilbəil bunlara tələbat çoxalır. Tələbatın artması əhalinin artmasıyla birbaşa bağlıdır. Ən çox tələbat paytaxt Bakı, Gəncə, Sumqayıt böyük şəhərlərin ətrafında olan müxtəlif torpaqlarla bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında əmlak məsələləri üzrə ekspert Elnur Azadov deyib.

Onun sözlərinə görə, evlərin qiyməti Bakı şəhərində son 3 il ərzində təxmini 30% artdığına görə, əhalinin mənzil alışında çətinliklər yaranır və əhali bir çox hallarda fərdi ev tikintisi üçün torpaq alışında maraqlı olurlar: "Əvvəlki illərə baxdıqda tələbat 2 dəfə çoxalıb və təəssüflər olsun ki, torpaq təklifləri azalır.

Bakı şəhərində ən bahalı torpaqlar, şəhərin mərkəzi hissələrinə yaxın olduqca formalaşır. Daha ucuz təkliflər şəhər ətrafı olan ərazilərdə olduqca çoxdur. Məsələn, əvvəlki illərdən daha çox torpaqların təklifləri, qiymətləri Abşeron ərazisində, Saray qəsəbəsi, Xırdalan şəhəri ətrafı, Qaradağ zonası, Türkan, Ləhic və Pirşağı bağları bu kimi ərazilərdə daha ucuz olur. Bura Sulutəpə ərazisini də əlavə etmək olar ki, burada da təkliflərin sayı olduqca çoxdur. Lakin tələbat formalaşdıqca həmin adını çəkdiyim ərazilərdə torpaqların sayı məhdudlaşıb. Məsələn, 1 sotu 5 mindən aşağı demək olar ki, Bakı şəhəri ətrafı ərazilərində tapmaq çətindir. Təbii ki, söhbət çıxarışla təmin olunmuş torpaqlardan gedir.

Bələdiyyə torpaqları hansılar ki, mülkiyyəti təsdiq olunmayıb dövlət tərəfindən, təəssüflər olsun bu kimi təkliflərin sayı daha çoxdur. Lakin qanunla bu kimi torpaqlarda ev tikintisinə yol verilmir deyə, son illər çıxarışla təmin olunmuş torpaqların qiyməti daha kəskin artıbdır. 2023-cü ilin oktyabrın 1-dən isə sənədi olmayan tikilmiş evlərə kommunikasiya çəkilməsi qanunla yol verilmir. Bu da son bir neçə ay ərzində, bu kimi torpaqların qiymətlərinə daha çox təsir etdi".

Elnur Azadov sözlərinə belə davam edib: "Son bir il ərzində torpaqların qiymətinə təsir edən başqa amillər də var. Məsələn, keçən ilin Fevral ayında Türkiyədə baş vermiş zəlzələdən sonra bizim ölkədə də vətəndaşlarda fobiya yaranmışdı. Bir çoxları çoxmənzilli yeni binalardan evlərini satmaqla fərdi evlərin tikintisinə üz tutmuşdular. Həmin ərəfədə də fərdi evlərin də, torpaqların da qiyməti nisbətən artdı.

Ötən ilin yayı ərzində, daha doğrusu, Bakı şəhərində zəlzələ baş verdiyi dövrdə də həmçinin, fərdi evlərin və torpaqların qiymətində artımlar müşahidə olundu".

***Ayşən Vəli***



# Hərbi alyans generalı müharibədən danışdı

***Andrey Serdyukov: "KTMT Ermənistan-Azərbaycan sərhədində yüksək münaqişə potensialı görür, vəziyyəti normallaşdırmaq üçün sülh müqaviləsi tələb olunur"***



Ermənistanın şərti sərhəddə törətdiyi təxribatdan sonra KTMT-nin Baş Qərargah rəisi, general-polkovnik Andrey Serdyukov maraqlı proqnozlar irəli sürüb.

O, bununla yanaşı Qərbə eyham vuraraq deyib: "Ayrı-ayrı dövlətlər tərəfindən Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirmək, Xəzər dənizinin ehtiyatları və Orta Asiyaya birbaşa çıxış imkanlarını təmin etmək cəhdləri var. Bu məqsədlə digər məsələlərlə yanaşı, Ermənistan-Azərbaycan sərhədinin yüksək münaqişə potensialından fəal istifadə olunur. Sülh sazişinin bağlanması vəziyyətin gələcək nizamlanmasında mühüm olaraq qalacaq".

Serdyukovun sözlərinə görə, Qərb Ermənistanın KTMT-yə üzv olmasına baxmayaraq, Bakı ilə İrəvan arasında münaqişədən sonrakı nizamlanmaya təsir göstərməyə çalışır.

Bu ara Ermənistanda hərbi-siyasi cəbhədə vəziyyət gərgin həddə çatıb. Sözügedən təxribatlar sonra general-mayor Kamo Koçunts Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin birinci müavini vəzifəsindən azad edilib.

Bu barədə Ermənistan Prezidenti Vaaqn Xaçaturyan fərman imzalayıb.

Belə ki, Xaçaturyan generalı baş nazir Nikol Paşinyanın təqdimatı əsasında vəzifəsindən uzaqlaşdırdığını deyib. Koçuntsun yerinə isə Sarkisyan adına hərbi universitetinin rəisi Artur Yeroyan təyin edilib.

Xatırladaq ki, "Hraparak" qəzeti bundan əvvəl Paşinyanın Rusiyanın təsir dairəsində olan yüksək vəzifəli hərbçiləri ordudan uzaqlaşdıracağını yazmışdı. Nəşr bu baxımdan Kamo Koçuntsun da hədəfdə olduğunu bildirmişdi.

Generalın postundan uzaqlaşdırması Ermənistan ordusunun sərhəddə Azərbaycanın mövqelərinə qarşı təxribatından sonraya təsadüf etməsi məsələsi də ayrıca diqqət çəkir.

Qeyd edək ki, Azərbaycan Dövlət Sərhəd Xidmətinin məlum təxribata cavabı sərt olub. Nəticədə təxribatçı tərəfin 4 hərbçisi (sonradan daha biri) və postu yerləbir edilib.

***Afət Tahirqızı***

# Xankəndidə Qarabağ Universiteti




**Azərbaycan Prezidenti İlham Əliyevin Zəfər seçkilərində qazandığı qələbədən sonra növbəti Prezidentliyi dövründə ilk imzaladığı sərəncamlarından bir də "Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün maliyyə vəsaiti ayrılması haqqında" oldu. Sərəncama əsasən, Qarabağ Universitetinin fəaliyyətinin təşkilinə maliyyə dəstəyi göstərilməsi üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 10,0 (on) milyon manat ayrılıb. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.**





Bildiyimiz kimi, Prezident İlham Əliyev "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalamışdır. Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir.

Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olub. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb.

## YÜKSƏKİXTİSASLI KADRLARA YARANMIŞ ZƏRURƏT

Xankəndi şəhərində yerləşəcək Qarabağ Universitetinin nizamnaməsinə əsasən, təhsil ocağının fəaliyyət istiqamətləri belə müəyyənləşdirilib: Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə genişprofilli ali təhsilli mütəxəssislərin hazırlanması; magistratura təhsil səviyyəsində ixtisaslaşmalar üzrə ayrı-ayrı ixtisas sahələrinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsi; doktorantura təhsil səviyyəsində yüksəkixtisaslı elmi kadrların hazırlanması, ixtisas və elmi dərəcələrin yüksəldilməsi; orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi; elmin müxtəlif sahələri və istiqamətləri üzrə tədqiqatların aparılması. Əlbəttə ki, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarıb.İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün ən önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, kənd təsərrüfatı təyinatlı ərazilərin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir. Əlbəttə ki, infrastrüktur layihələrin həmin ərazilərdə həyata keçirilməsi xüsusi önəm daşıyır. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər görülər. İşğaldan azad olunan müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılmağa başlanıldı. Enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və lazımı həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir. Eyni zamanda, ərazilərdə zəruri rabitə infrastrukturu qurulmaqla bu sahədə xidmətlər və mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, internet, poçt və s. təşkil edilmişdir. Təhsil, səhiyyə və sosial xidmətlərin qabaqcıl standartlara uyğun təmin olunması, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi müəyyənləşdirilmiş hədəflər sırasındadır. "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları əsasında yeni müasir şəhərlərin və kəndlərin salınması ilə əhalinin layiqli həyat şəraitini təmin edir.

Bütün görüləcək işlərin əsasında işğaldan azad olunan ərazilərimizi qısa bir zamanda müasir və inkişaf etmiş bir məkana çevriləcəkdir.Vətən müharibəsinin yaratdığı ən mühüm imkanlardan biri kimi regionda modern universitet modeli bənzərsiz nümunədir. Qarabağ Universiteti Azərbaycanın rəqəmsal transformasiyasını təmin edəcək insan kapitalını formalaşdıracaq ali təhsil müəssisəsi kimi həyatımıza daxil olacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Əhmədin videosu

**Lalə Mehralı**

***Qızımın məktəbdən çıxmağını gözləyirdim, mənim kimi övladını götürməyə gələn onlarla valideynlə birlikdə. Valideynlər dəstə-dəstə toplaşıb söhbət edirdilər. Söhbətin mövzusunu da təxmin edərsiniz-oğlulun qətlə yetirdiyi ailə. Qızğın müzakirə gedirdi. Qəfil arxamda dayanan dəstədən bir səs eşidildi: "Videonu gördünüz?" Bütün səslər kəsildi və diqqətlər o səsə yönəldi. "Bacısını və uşağını öldürdüyü video çıxıb teleqramda".***

22 ildir mətbuatdayam, mən hələ hansısa mövzuya belə hərislik görməmişdim. Mübaliğəsiz, şişirtməsiz deyirəm. İlahi, insanlar qan görməyə, vəhşilik izləməyə nə vaxt bu qədər sustadılar? Kişilərin soyuqqanlılığından danışırıq həmişə, handa bir kişi baxa bilib o videoya, əksəriyyəti özündə cəsarət tapa bilməyib, açmayıb. Amma zərif, incə məcluq dediyimiz qadınlar əlbəəl gəzirlər videonu, bir-birinə göndərirlər, valideyn qruplarına göndərirlər, müzakirə edirlər. O qədər soyuqqanlılıqla, o qədər rahatlıqla danışırlar ki, insan heyrətindən buz olur.

Jurnalistik, gündəm mövzusunu iztər-istəməz yazmalı oluruq, amma mən o videoya baxmağı ağlımdan belə keçirməmişəm, o haqda yazmadım. Çünki mən daş deyiləm, ətəm, qanam, hisslərim var. İnsanam mən. İnsan olan elə bir mənzərəni necə izləyə bilər? Onu çəkən necə çəkib, necə soyuqqanlılığını qoruyub, o da bir ayrı dərd.

Bəs o videonu izləməyə qadınları nə vadar edir? Nə əldə edəcəklər izləməklə? Bir caninin iki günahsızı qətl etdiyi videonun hansı mənəvi-sosial xeyri, psixologiyanı dağıtmaqdan başqa nə faydası olacaq o qadınlara? Yaxud psixologiyaları korlanacaqmı?

Özləri fərqində deyil, əlbəttə, korlanacaq. Alt şüura yüklənən hər bir informasiya gün gələcək özünü büruzə verəcək. Kimisi övladını döyməklə, kimisi evdəkilərə, çöldəkilərə, yoldakılara, işdəkilərə kin qusmaqla, zəhər axıtmaqla büruzə verəcək. Siz elə bilirsiniz hər gün rastlaşdığımız, üzündən zəhər damlayan, kin yağan insanlar elə-belə yaranır? Hamısı bu yollarla aqressiya ilə yüklənir.

Bu günlərdə axtarış sistemində ən çox axtarılan sözün "Əhmədin videosu" olduğuna adım qədər əminəm. Zombiləşən cəmiyyət zombi filmlərindən betər olub. İnsan niyə belə bir dəhşətə baxmaq istəsin ki? Nə marağı, nə faydası ola bilər? Sosial şəbəkə kanalları bu video üzərindən baxış, üzv toplayır, pul qazanır. İnsanların yeganə ortaq mövzusu bu olub, hamı salamdan öncə bir-birinə "videonu gördün?", - deyə soruşur.

Hər gün daha da çətinləşir bu cəmiyyətdə yaşamaq. Müəllim şagirdi əzişdirir, müdir işçini alçaldır, ər arvadını boğazlayır, gəlin qaynanasını döyür – bütün cəmiyyət qarşıdurma halındadır. Uşaqlar bir-birini bıçaqlayır, daha nə deyim? Əlləri qələm ləkəsi, rəsm boyasına boyanmalı olan yeniyetmələrin əli biləklərinə qədər qana bulaşır.

Məlum hadisədə də hamı öz fikrini yazır, hamı özünü fikir bildirməyə, hadisəni şərh etməyə borclu hesab edir. Nə journalist kimi, nə də sosial fəaliyyəti olan biri fikir bildirmədim, şərh etmədim. Bu qədər dəhşətli bir faciəni həzm eləmək asan deyil, asan olmamalıdır. Mən hələ həzm edə bilməmişəm, hələ fikrimi cəmləyib nəsə yaza bilməmişəm. O videoya baxmağı ağlımın ucundan belə keçirməmişəm. Mənim övladlarım var, onlar üçün psixoloji sağlamlığımı qorumaq məcburiyyətindəyəm, həyata davam edə bilmək üçün, bu qədər qatilin, caninin, pis insanın içində onları böyüdə bilmək üçün bunu edə bilmərəm. O videoya soyuqqanlılıqla baxa bilənlərin, baxdıqdan sonra eyni soyuqqanlılıqla müzakirə edənlərin içində yaşamaq çətin olacaq

# "İndi toylar biznes sahəsinə çevrilib"

***"Toy adətlərimiz xeyli dəyişib". Bu sözləri SİA-ya açıqlamasında şair, publisist, sosioloq, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, iqtisad elmləri doktoru (1978); "Ahəngyol" elmi-fəlsəfi konsepsiyasının yaradıcısı Əhməd Qəşəmoğlu deyib. Onun sözlərinə görə, çox təəssüf ki, belə dəyişib: "Əvvəlki toylarımız daha məbtiqi, lazımlı idi, çünki toyun özünün bir fəlsəfəsi var. Toy iki gəncin ailə qurmağının qeyd olunmasıdır. Həmin gün nə qədər ürəkaçan, təntənəli, şən keçirsə, o qədər həmin gəncin ürəyində qalır, ətrafdakı insanlar şənlik edir. Əvvəllər toylarımızın modeli belə idi ki, toy başlayırdı, bəy bir tərəfdə dostları ilə, gəlin başqa evdə rəfiqələri ilə romantik, nağılvari dünyada olurdu, digər tərəfdə də toy başlayırdı.***









Mən uşaq olanda toylar Azərbaycanın hər yerində, o cümlədən, Naxçıvanda üç gün çəkirdi. 50-ci illərin axırları idi, 2-ci dünya müharibəsindən bir az keçmişdi, insanların ürəkləri qüssəli idi, toy edən gənclər də az idi. Bir çoxları müharibədə ölmüşdü, ona görə də kənddəki gənclərin də sayı az idi. Onun üçün toylar kəndlərdə xüsusi coşqu yaradırdı. Üç gün üç gecə - cümə, şənbə və bazar günləri olurdu. Bu üç gündə kənddəki böyük, kiçik hamı toya yığışırdı. Elektrik işıqları da təzə çəkilmişdi, ətraf-aləm işıqlı olurdu. Toy da qızışırdı. Hamı özünə borc bilirdi ki, toya şənlik versin. İndiki kimi yox, az miqdarda şabaş verirdilər. Əgər rəqs edənin əlinə 10 manat pul verirdilərsə, 1 manat musiqiçilərə çıxırdı, qalanını geri götürürdü. O toylarda rəqs, güləş, yallı da olurdu. Sonda gəlin gələndə ona qızıl da gətirib verirdilər. Gəlin qapının ağzında dayanırdı, kim hədiyyə verəcəkdisə, elan edirdilər. Məsələn, deyirdilər ki, əmisindən bir inək, hamı qışqırırdı ki, Allah uşaqlarına da qismət eləsin.

Gəlinin belinə qırmızı lent bağlamaq o deməkdir ki, gəlin bakirə qızdır. Bəzən də gəlinin belinə qızıl taxmaq qohumların niyyəti idi ki, qoy gəlinin ailəsi gələcəkdə zəngin olsun. Belinə qızıl taxmaq, cibinə qızıl qoymaq arzu, niyyət kimi idi. Bunların hamısının arxasında bir fəlsəfə var idi. Nağıllar aləmindəki kimi gəlinlə bəyin ilk günü xoş ovqat içində keçirdi.

İndi toy başlamamış tamada ortaya düşür, saat 6-da bəylə gəlini çağırır ki, rəqs etsinlər. Saat 6-dan 12-yə kimi rəqs etmək onları fiziki cəhətdən çox yorur. Bəzən də hansısa biri bəylə gəlinə spirtli içki içirir. Tibbi nöqteyi nəzərdən dünyaya gələn uşaqda fəsad olur. Bəzən eşidirik ki, bəylə gəlin səhərə kimi yatıb qalırlar. Hansı toya getsəniz baxın, yaşlı insanlar eşiyə çıxır, çay içirlər. Çünki onların beyni içəridəki səsə dözmür".

"İndi toy biznes sahəsinə çevrilib. Əvvəllər kəndlərdə 7-8 toya gedirdinsə də, pul da atmırdın, rəqs edib gəlirdin. Hədiyyəni verənlər də bəylə gəlinin yaxın adamları idi. Kənd camaatı isə toyu şənləndirirdilər. İndi isə bir adamı bir ayda 4 toya çağırıblarsa, o adamın evində xeyli problem yaranacaq. Tək getsə, ən azı 100 manat, həyat yoldaşı ilə 200 manat verməlidir. Əgər həyat yoldaşı ilə getsə, gözəllik salonundan keçməsi ilə bərabər 250 manata başa gələcək. İndi verilən əmək haqqı ilə bir adam 4 toya gedə bilmir. Pulu tapa bilmir, kriminal işlərlə məşğul olur ki, toya getsin. Biz hökmən indiki cəmiyyətin tələblərinə və toyun fəlsəfəsinə uyğun olaraq yeni toy modelləri düşünməliyik.

Əgər toy sahibinin qonaqları uzaqdan gəlirdisə, toyu gündüzə salırdılar ki, axşama camaat qayıdıb gedə bilsin. Kənardan çox qonaq gözlənilmirdisə, toy axşamüstü salınırdı" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "Dilənçiyə pul vermək etik sayılmır"

"Son vaxtlar insanların mərhəmət hisslərindən sui-istifadə edən bir qrup tənbəl insanlar Azərbaycan cəmiyyətində artıq ictimai qınaq və biganəlik hədəfinə çevrilməkdədir". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net – Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.



O, bildirib ki, bir çox xarici ölkələrdə, xüsusən də, Yaponiya, Koreya kimi ölkələrdə əl uzadıb dilənçilik edən şəxslər cəmiyyətin uçurumda olan və ictimai qınağa, tənqidə hədəf olan qrupu kimi götürülür. Dilənçiyə pul vermək, ümumiyyətlə, etik sayılmır.

Azərbaycanda da tarixən görmüşük ki, nənə-babalarımız da əlsiz-ayaqsız insanlara müəyyən köməkliklər ediblər. Xüsusilə, Novruz, Oruclug bayramı zamanı sədəqə həmin insanlara verilib. Təəssüflər olsun ki, son dövrlərdə bunun obyektiv və subyektiv səbəbləri də var. Son zamanlar sosial-iqtisadi vəziyyətin çətinləşməsi, pandemiya, Qarabağ müharibəsi, dünyada gedən iqtisadi böhran və formasiyaların dəyişilməsi, SSRİ zamanından müstəqillik dövrünə qədəm qoymağımız və oturuşmuş iqtisadi-sosial təsisatların dağılması insanlarımızın bir hissəsini, xüsusilə də, onların işsiz və kasıb təbəqəsini real və virtual aləmdə dilənçiyə, başqalarından həmişə yardım istəməyə sövq edib.

Əvvəllər biz anlayırdıq ki, insanlara çətindir, məcburi köçkünlərimiz var idi. Hər kəs onlara kömək edirdi. Amma bu köməyin bir sonu olmalı idi. Onlar dövlət təminatı ilə əhatə olunandan sonra artıq bu köməklik fərdi insanlar tərəfindən azaldı. Bir çox şirkətlər, xeyriyyəçi insanlar belə insanlara kömək etsələr də, ümumən əhali cavan, gənc insanlara yardım etməyi kəsdi. Pandemiyadan sonra isə başqalarının hesabına yaşamaq istəyən şəxslərin artdığını görürük. Axşamlar paytaxtın əsas nəqliyyat qovşaqlarında çoxlu gənc adamlar görürük ki, utanmadan dilənirlər. Siqaret pulu, yol pulu istəyərək insanların mərhəmətini qazanmağa çalışırlar. Əlbəttə ki, hansısa fiziki məhdudiyyəti yoxdursa, əlil deyilsə, belə insanlara kömək etmək olmaz, çünki biz onlara kömək etdikcə cəmiyyətin digər sağlam nümayəndələrinə də pis örnək vermiş oluruq.

Keçmişdə dilənçilik edən, yardım istəyən insanlara çox pis baxılırdı, onlar cəmiyyətin yüksək qınağına hədəf olurdular. Amma indi sanki hər kəs buna normal baxır. Biz real həyatla yanaşı, virtual həyatda da - TikTok platformasında hədiyyələr dilənən, bunun üçün dəridən-qabıqdan çıxan, qız paltarı geyinmiş oğlanları, rəqs edən nənələri görür, getdikcə cürbəcür meymunluq edən şəxslərdən ibarət böyük kütləyə sahib oluruq. Bununla cəmiyyətlə yanaşı kütləvi informasiya vasitələri, sosial şəbəkələrdə də səviyyəli insanlar mübarizə aparmalıdırlar".

Sosioloq əlavə edərək deyib ki, əgər bir insan sağlamdırsa, hətta 4-5 uşağı varsa da, ona yardım etmək qəti olmaz: "Uşaqları necə dünyaya gətiribsə, zəhmət çəkib işləsin, pul qazanıb uşaqların bütün xərclərini ödəsinlər. İndi dilənçiliyin başqa forması da çıxıb. Görürlər ki, heç kim sağlam insanlara kömək etmək istəmir, 5-7 sayda dünyaya uşaq gətirərək dövlətdən və cəmiyyətdən uşaq pulu dilənməyə başlayırlar. Dövlət onların müəyyən mənada iqtisadi vəziyyətlərini düzəltmək üçün sosial yardımlar, yaxud məşğulluq idarəsi onlara avadanlıqlar verəndə həmin avadanlıqları satırlar. Yenidən televiziya, internetə çıxıb dilənirlər. Belə insanlarla cəmiyyət mübarizə aparmasa, onlara arxa çevirməsə, sayları getdikcə artacaq. Dövlət də bu cür insanların məcburi işə cəlbetmə proqramı həyata keçirməlidir.

Polis dəfələrlə dilənçiliklə məşğul olan müəyyən qrup insanları həbs edib. Məhkəmə onları sadəcə cərimələyir və buraxır. Onların yenidən dilənçiliklə məşğul olmayacaqlarına kim təminat verə bilər? Bu insanlar peşəkar dilənçi olub cinayətlə məşğul olmasınlar deyə, onların sonrakı taleyi ilə də məşğul olmaq vacibdir. Bəzi proqramlarla bu insanlar faydalı əməyə cəlb edilməli, işləyib ailələrini dolandırmalıdırlar".

***S. Ağazadə***

***Ümummilli lideri Heydər Əliyevin təməlini qoyduğu inkişaf strategiyasını yeni çağırışlar şəraitində layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev heyrətamiz şəxsi keyfiyyətləri, xalq və dövlət qarşısında müstəsna xidmətləri ilə yeni tarixi dövrün milli lideri səviyyəsinə yüksəldi. Onun rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxardı. Milli və dövlətçilik maraqlarımızın qorunması və irəli aparılması, ölkəmizin potensialının artırılması üçün görülən ardıcıl tədbirlər Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə və regional güc mərkəzinə çevirdi.***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

ANALİZ

# 20 illik strateji inkişaf konsepsiyası: haradan hara gəldik?

Artıq ilk prezidentlik müddətində ölkə iqtisadiyyatında sürətli və davamlı inkişaf dövrü yaşandı. Sonrakı dövrdə sosial-iqtisadi islahatlar genişləndirildi və ölkədə mövcud vəziyyət tamam dəyişdi. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng transmilli layihələr qlobal iqtisadiyyatda mühüm roy oynamaqla yanaşı, həm də ölkəmizin enerji müstəqilliyini təmin etdi, iqtisadi səviyyəsini dəyişdirdi.

2013-cü ildə ilk peykinin buraxılması ilə Azərbaycan kosmik klubun üzvü oldu, sonrakı dövrdə kosmik peyklərinin sayını 3-ə çatdırdı. Çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanın iqtisadi mənzərəsini daha da zənginləşdirdi. Ölkəmiz Avropa ilə Asiyanı bir-birinə sıx bağlayan nəqliyyat-logistika mərkəzinə çevrildi. Qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatının, informasiya texnologiyalarının və turizmin inkişafı dayanıqlı iqtisadi tərəqqi amillərindəndir.

Ümumiyyətlə, keçən 20 il Azərbaycanın simasını kökündən dəyişib. Yeni iqtisadi sistem tətbiq olunub, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün xüsusi proqramlar həyata keçirilib. Ölkə böyük bir tikinti quruculuq məkanına çevrilib.

2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Qarabağı düşmən işğalından azad etməsindən sonra isə dünyanın bir sıra ölkələrindən böyük olan bu ərazidə çox nəhəng quruculuq işlərinə başlanıb. Şəhərlər kəndlər sıfırdan bərpa olunur, yeni iqtisadi sahələr yaradılır. Göründüyü kimi, həm ölkə üzrə planlaşdırılan layihələr davam edir, həm də Qarabağın yenidən qurulması işləri. Əlbəttə ki, bu işlər çox nəhəng maliyyə vəsaitləri tələb edir və bütün bunlara nail olmaq üçün iqtisadiyyatımız inkişaf etməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimində çıxışında iqtisadi və sosial sahədə vəziyyətə toxunub. Dövlət başçısı qeyd edib ki, bu ilin yanvar ayının nəticələri ümidvericidir. Belə ki, ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Ölkə başçısı makroiqtisadi göstəriləri müqayisə edib: "Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni, bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq. Bu, bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, ondan da az təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəzən də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən az. Yəni, bu, nəyi göstərir? Bizim sağlam maliyyə sistemimizin göstəriciləridir və bu, bizə imkan verir ki, biz müstəqil siyasət aparaq. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır".

Digər vacib vəzifələrdən biri bərpaolunan enerji ilə bağlıdır. Burada da biz ön sıralardayıq, Prezident vurğulayıb ki, 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, əsasən günəş, külək və hidro elektrik stansiyaları. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat.

Ənənəvi yanacaq növləri- neftqaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir.

Təbii qaz istehsalında və ixracında da böyük irəliləyişlər var. Artıq 8 ölkəyə təbii qaz ixrac edilir. Lakin tələbat daha böyükdür, ilk növbədə, təbii ki, Avropa məkanından. Bu yaxınlarda "Şahdəniz" yatağından sonra ikinci resurs bazamız "Abşeron" qaz-kondensat yatağından ilk qaz çıxarılıb. Gələn il "Azəri-Çıraq-Günəşli" yatağının dərin laylarından qaz hasilatı nəzərdə tutulur. Dövlət başçısının sözlərinə görə, "Ümid", "Babək", "Şəfəq", "Asiman", "Qarabağ" neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var.

Nəqliyyat infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsi Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib. Ölkə rəhbəri vurğulayıb ki, bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq: "Bizim üstünlüyümüz ondan ibarətdir ki, biz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir. İlk dəfə olaraq, o zavod işə salınanda sifarişlər onu 100 faiz işlə təmin edib.

Səkkiz beynəlxalq aeroportumuz var, doqquzuncu Laçında inşa edilir. Yəni, biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Əlbəttə ki, beynəlxalq təcrübəyə əsaslanaraq biz tranzit ölkə kimi öz imkanlarımızı təqdim edirik. Əlbəttə ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq".

Əlbəttə ki, güclü iqtisadi inkişaf və böyük gəlirlərin əldə edilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına təsir göstərməyə bilməz. Dövlət başçısı bu sahədəki vəziyyəti də müqayisə edib: "2003-cü ildə bizim minimum əməkhaqqı,- bəlkə də çoxlarının yadında deyil,- 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və bu davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var.

Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun. Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq".

Göründüyü kimi həm makroiqtisadi göstəricilər, həm də əhalinin sosial rifahı 20 il əvvəlki vaxtla müqayisədə çox böyük artım nümayiş etdirib. Aparılmış iqtisadi islahatlar, həyata keçirilmiş xüsusi proqramlar, tətbiq olunmuş sosial müdafiə paketləri ölkədə sosial-iqtisadi vəziyyəti kökündən dəyişib.

Ölkə iqtisadiyyatının qlobal böhranlara davam gətirəcək gücə çatdırılması dövlətimizin iqtisadi və siyasi müstəqilliyini də təmin edib. Qeyri-neft sektorunda əldə olunan inkişaf tempi neft gəlirlərinin strateji məqsədlərlə sərf olunduğunu göstərir və post-neft dövrü üçün ölkəmizin hazır olduğunu nümayiş etdirir.

Əlbəttə ki, son 20 ildə bu islahatları effektiv şəkildə həyata keçirmiş və ölkəmizi qlobal təlatümlərdən uğurla çıxara bilmiş Prezident İlham Əliyev növbəti 7 illik rəhbərliyi dövründə bütün strateji hədəfləri təmin edəcək. Dövlət başçısı özünün də də dediyi kimi xalqımıza verdiyi bütün vədləri yerinə yetirmişdir və artıq yeni eranın başlandığını elan etmişdir. Şübhə yoxdur ki, yeni dövrdə yenə Azərbaycan qurulacaq və ölkəmiz dünyanın ən qüdrətli dövlətləri sırasında öz layiqli yerini tutacaqdır.

***Elçin Bayramlı***

## AzerTelecom şirkətinin Baş direktoru Capacity Middle East tədbirində çıxış edib

***AzerTelecom şirkətinin Baş direktoru Ana Nakaşidze ötən həftə Dubayda (BƏƏ) keçirilmiş Capacity Middle East tədbirində panel müzakirəsində çıxış edib. "Mövcud marşrutlarındiversifikasiyası Yaxın Şərqin internet kabel xəritəsini dəyişirmi?" mövzusunda keçirilmişmüzakirələrdətelekommunikasiya sahəsində fəaliyyət göstərən müxtəlif şirkətlərin rəhbər şəxsləriiştirak ediblər.***




Panel müzakirəsi zamanı xüsusilə süni intellektin inkişafı və rabitə texnologiyalarının sürətli yayılması, eləcə də internet resurslarından asılılığın güclənməsi fonunda marşrutların şaxələndirilməsinə artan tələbat və beynəlxalq bağlantı xidmətlərinin davamlılığı məsələləri müzakirə edilib. "Qlobal və regional şəraitin, eləcə də yeni texnologiyaların internetin yayılması coğrafiyasına təsir etməsi səbəbindən, Yaxın Şərq və qonşu region ölkələri bağlantı xidmətləri üçün yeni dəhlizlər və coğrafi imkanları axtarırlar.Cənubi Qafqaz və ya Orta dəhliz Yaxın Şərq üçünbağlantı xidmətlərinin təmini istiqamətində əvvəlki dövrlə müqayisədə daha önəmli və aktual marşruta çevrilir. Sözügedən regionda yeni, irimiqyaslı layihələrin həyata keçirilməsi bu marşrutun səmərəliliyinin artırılmasına və daha cəlbedici olmasınatəsir göstərəcək",—deyəAna Nakaşidze vurğulayıb.

Capacity Middle East Yaxın Şərq və ətraf regionlardan 2600-dən çox İKT sahəsində fəaliyyət göstərənaparıcı şirkətləri cəlb edən əhəmiyyətli qlobal tədbirlərindən biridir. Tədbir telekommunikasiya operatorları, bulud texnologiyaları, kontent, proqram təminatları, məlumat mərkəzləri və digər sahələrin nümayəndələrini bir araya gətirir. AzerTelecom Azərbaycanın aparıcı telekommunikasiya şirkəti olmaqla NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun Telekommunikasiya qrupuna daxildir.

SƏS
16 fevral
2024-cü il

**“SƏS” qəzetinə abunə kampaniyası davam edir!**

*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*





TOVUZ-BALTIYA LTD

**Möhtərəm Prezident,**
**Müzəffər Ali Baş Komandan!**

Sizi növbədənkənar Prezident seçkilərində möhtəşəm qələbə qazanaraq yenidən Azərbaycan Respublikasının dövlət başçısı seçilməniz münasibəti ilə səmimi qəlbdən təbrik edirik!
Sizin bu qələbəniz Zəfər qələbəsinin davamı və tarixi Azərbaycan torpaqlarının geri qaytarılmasının başlanğıcıdır. Sizin rəhbərliyiniz ilə doğma Azərbaycanımızın bundan sonra da yeni-yeni zəfərlərə imza atacağına inanır və bu yolda dövlət başçımıza uğurlar arzulayırıq!

**“Tovuz Baltiya” LTD-nin baş direktoru**
**Naiq Məmmədhəsənov**

# İLHAMLA İRƏLİ!

# Ronaldu bu göstəricidə Messiyə çatdı



***Səudiyyə Ərəbistanının “Əl-Nəsr” futbol klubunun portuqaliyalı hücumçusu Kriştianu Ronaldu ABŞ-nin “İnter Mayami” komandasının argentinalı hücumçusu Lionel Messi ilə penalti istisna olmaqla qolların sayında bərabərləşib. Bu barədə futbolçuların statistikasını aparan “MessivsRonaldo” səhifəsi bildirib.***

Statistikaya əsasən, Ronaldu və Messi indiyədək penalti istisna olmaqla 713 dəfə topu qapıya göndərə biliblər. Argentinalı hər 121, Ronaldu isə hər 138 dəqiqədən bir qeyri-penalti qolu vurur.

# Azərbaycanda “Lada” avtomobilləri yığılacaq

Rusiyanın “AvtoVAZ” avtomobil istehsalçı şirkəti Azərbaycanda “Lada” avtomobillərinin yığılmasının təşkili ilə bağlı danışıqlar aparır. Bu barədə şirkətin prezidenti Maksim Sokolov jurnalistlərə bildirib. “Danışıqlar aparırıq və “AvtoVAZ”ın nümayəndə heyəti bu günlər Azərbaycandadır. Nümayəndə heyəti gələcək tərəfdaşlarımızın istehsal müəssisələrinə baxacaq. Ümid edirəm ki, yazda müsbət xəbərlər olacaq”, - deyə M.Sokolov vurğulayıb.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**